

## Əli Əsədovdan doktorantura ilə bağlı qərar

***Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydalarında dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

*Səh.2*



## Vüsal Kərimlinin milyonluq korrupsiya mexanizmi


# UNİKAL

**№02 (2136) 13 yanvar 2023-cü il**

**Qiyməti 50 qəpik**

Qurucusu: Asəf Rzayev

www.unikal.az

unikal-1@mail.ru




Səh.9

## Region "oyunçuları"na mühüm mesaj: "Səbr limiti sonsuz deyil"

### Bakı Nəqliyyat Agentliyindəki qaranlıq işlər gün işığına çıxmağa başladı - sensasiyalı faktlar!

*Təxminən bir il öncə, daha dəqiq desək, ötən ilin fevralında Bakı Nəqliyyat Agentliyi (BNA) Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyinə verildikdə bu heç kimi təəccübləndirmədi. Fəaliyyəti az qala yaranandan bəri ictimaiyyətin ciddi narazılığı ilə müşayiət olunan, tıxacların qarşısını ala bilməyən, yalnız kosmetik işlərlə süni fəaliyyət görüntüsü yaradan bu qurumda bir yandan da korrupsiya iddialarının intensivləşməsi hökumətə başqa çıxış yolu qoymamışdı. BNA-nı sözün həqiqi mənasında işlək və şəffaf quruma çevrmək üçün onun paytaxt meriyasının tabeliyinə verilməsi qaçılmaz idi. Lakin belə görünür ki, Agentliyin rəhbəri Vüsal Kərimli illərdən bəridir medianın, cəmiyyətin...*

Səh.8

## "2024-cü ildə Zəngəzur dəhlizinin istifadəyə verilməsi gözlənilir"



*Milli Məclisin deputatı Naqif Həmzəyev "Unikal"a müsahibə verib. O, Zəngəzur dəhlizinin nə zaman açıla biləcəyindən, Azərbaycanda inflyasiyanın artmasından, ölkəmizdə yeni idarəetmə modelinin tətbiq olunmasından və digər məsələlərdən danışıb.*

Səh.4

## Qubad İbadoğlunun partiyasının fəaliyyətinə xitam verildi



*Azərbaycan Demokratiya və Rifah Partiyasının fəaliyyətinə xitam verilib. "Unikal" xəbər verir ki, bununla bağlı partiyanın sədri Qubad İbadoğlu paylaşım edib. Bildirib ki, Partiyanın mərkəzi icra strukturlarının buraxılması və təyinatlı rəhbər şəxslərin fəaliyyətlərinə xitam verilməsinə dair sərəncam imzalayıb:*

Səh.2

## Yaqub Eyyubovla bağlı iddianın ilginc detalları



*Qəzetimizin ötən sayında "Bəzi iri məmurların 2023 qorxusu" başlıqlı yazı dərc etmişdik. Yazıda vurğulamışdıq ki, 2022-ci il də ölkədə bir sıra yüksək vəzifəli məmurların işdən azad edilməsi ilə yadda qaldı. İşdən azad edilənlər xüsusilə uzun illər həmin vəzifədə qalması ilə fərqlənirdi.*

Səh.5

# "Elə bilirlər, maşınımı "Tiktok"un puluyla almışam" - Pərvin Abıyeva



***"Çoxları elə bilir ki, Pərvin "Tiktok"dan qazandığı pulla özünə maşın alıb, yeyir, içir, gəzir. Mən onsuz da lüks həyatı sevmişəm və bunu özümə yaşatmışam. Bunu "Tiktok"a gələndən sonra etməmişəm"***

Bu sözləri aktrisa Pərvin Abıyeva "7 canlı" verilişində deyib. O, sosial şəbəkədən qazandığı məbləğin böyük hissəsini xeyriyyə məqsədiylə xərclədiyini bildirib:

"Oradan gələn pulun 70 faizini xeyriyyə işinə verirəm, ya da hədiyyə şəklində fırladıb atıram. Baxdığım xüsusi ailələr var, onlara da yardım edirəm. Heç kim deməsin ki, Pərvin oranın puluyla kef edir".

# "Milyonları yeyib, indi altından çıxa bilmir" - Müşviq Şahverdiyev

***Xəbər verdiyimiz kimi, tanınmış film istehsalçısı "Cinemazadeh" aktyor Müşviq Şahverdiyevi məhkəməyə verib.***

Məsələ ilə bağlı Müşviq Axşam.az-a açıqlama verib. O, şirkətin fəaliyyətini tənqid edərək, onları qeyri-peşəkar adlandırıb: "Telefonum bayaqdan dayanmır. Hamıya cavab verə bilmirəm. Həmin şirkətə qeyri-ciddi şirkət, insan kimi baxıram. Onlar vaxtında ciddi işlər görürdülər. Sonradan özlərini biabır etmiş şirkət oldular. O şirkətdə ki, işləyənlər narazı gedirlər, nə gözləyirsiniz? Aktyor Məcid Hüseynovu da verdilər məhkəməyə, uduzdular. Qrim edən qızı verdilər 3-4 min manata görə, hakim onları biabır edib.

Vaxtında şirkətin direktoru (Cəfər Axundazə - red.) Moskvadan gələndə yüksək vəzifədə çalışan dostunun köməkliyi ilə iş aldı. Əvvəl özünü doğrultdu, indi doğrulda bilmir. Onlara ayrılan böyük məbləğdə pulları yeyiblər. Ondan sonra fikirləşib, bunun altından necə çıxım? Bu dəqiqə onun durumu yaxşı deyil, 3-4 milyon pul yeyib, indi altından çıxa bilmir".



Müşviq bildirib ki, sözügedən şirkət 3 film üçün ona 25 min manat avans ödəyib: "3 film üçün 3 il əvvəl 2019-cu ildə avans ödəyiblər. Deyiblər ki, bu yay, qış heç bir filmə çəkilmə, film çəkiləcək. Filmin ssenarisi, komandası yox, gəlib məndən avans tələb edirlər. Hansı filmdir ki, mən çəkilişə getməmişəm? Yalandan, tutar qatıq, tutmaz ayran edib. Müşviq aldığı avansa görə, nə qədər işdən olub. Üç filmdən heç birinin yarısı çəkilməyib. 25 min manat ödəniş ediblər. Başqa layihələrdə yer almağıma icazə verməyiblər".

Aktyor əlavə edib ki, şirkəti məhkəməyə verməyə hazırlaşır: "Qarşı tərəf şərtlərə əməl etməyib. Mən onları məhkəməyə verməkdən, onlar məni verib. İndi məndən 90 min manat təzminat tələb edir ki, gəlməmisən, ziyana salmısan. Çıxardıb bir səs yazısı, mesaj göstərsin ki, məni çəkilişə çağırıblar, amma getməmişəm. İtirdiyim pulları onlardan tələb etmişəm. Onlarla "Ofis işi" serialı ilə bağlı müqaviləmiz var. Onu çəkdilər, yarımçıq qalıb. Müqavilədə yazılmışdı ki, heç bir layihədə iştirak edə bilməzsən. Mən də nə qədər pul itirmişəm. Əlimdəki dəlillərlə təzminat tələb edib, ala bilərəm. Vəkilimlə danışmışam, müqaviləmiz var, orada şərtlər yazılıb. Mən də onları məhkəməyə verəcəyəm. Yanvarın 27-nə məhkəmə təyin olunub".



# Sevda üçüncü dəfə ailə qurur

***Müğənni Sevda Sanəliyeva üçüncü dəfə ailə qurmağa hazırlaşır.***

Bu haqda ifaçı özü məlumat yayıb. Belə ki, sənətçi nişanlandığını bildirib. O, nişan üzüyünün və xonçaların yer aldığı görüntüləri yayımlayıb.

Qeyd edək ki, Sevda bundan əvvəl iki dəfə ailəli olub və ayrılıb. Onun ilk həyat yoldaşı polis olub. Sevdanın iki övladı var.

# Məleykə Əsədovanın səhhəti pisləşdi, tamaşa təxirə düşdü

***Xalq artisti Məleykə Əsədova səhhətində problem yarandığını bildirib.***



Axşam.az xəbər verir ki, aktrisa buna görə səhnəyə çıxa bilmədiyini deyib: "Sənətimi sevən tamaşaçılarıma bildirmək istəyirəm ki, səbirsizliklə gözlədiyiniz "Xurşudbanu Natəvan" tamaşası yanvarın 15-də olmayacaq. Son zamanlar yayılan qriplərin mənə də təsiri nəticəsində tamaşa ayın 26-na keçirilib. Allah izn versə 26-da varlığımla, sənətimlə, möhtəşəm Xurşudbanunun qəzəlləri ilə sizləri sevindirəcəyəm".

Əsədova xəstəxanada olduğunu, müalicə aldığını deyib.

# "Həyatımı zindan edib" - Çiçək

***Çiçək ləqəbli aparıcı Şəhla Vakkas oğlu ilə birlikdə Amerikaya yollanıb.***

O, fotolarını instqram hesabında yayımlayıb. Şəhla oğlundan gileylənib.

"Bu oğlan mənim həyatımı mənə zindan edib, bezmişəm ondan. Bütün günü deyir, bu nədir geyinmisən, orasını bağla, onu geyinmə... Mən bilərəm, ərim bilər" deyə, o, bildirib.





# Vüsal Kərimlinin milyonluq korrupsiya mexanizmi

## Bakı Nəqliyyat Agentliyindəki qaranlıq işlər gün işığına çıxmağa başladı - sensasiyalı faktlar!

***Təxminən bir il öncə, daha dəqiq desək, ötən ilin fevralında Bakı Nəqliyyat Agentliyi (BNA) Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyinə verildikdə bu heç kimi təəccübləndirmədi. Fəaliyyəti az qala yarandığı andan bəri ictimaiyyətin ciddi narazılığı ilə müşayiət olunan, tıxacların qarşısını ala bilməyən, yalnız kosmetik işlərlə süni fəaliyyət görüntüsü yaradan bu qurumda bir yandan da korrupsiya iddialarının intensivləşməsi hökumətə başqa çıxış yolu qoymamışdı. BNA-nı sözün həqiqi mənasında işlək və şəffaf quruma çevrmək üçün onun paytaxt meriyasının tabeliyinə verilməsi qaçılmaz idi.***

Lakin belə görünür ki, Agentliyin rəhbəri Vüsal Kərimli illərdən bəridir medianın, cəmiyyətin, hətta millət vəkillərinin tənqidlərini qulaqardına vurduğu kimi, başçılıq etdiyi qurumla bağlı bir il öncəki qərardan da lazımi nəticə çıxarmayıb. Çünki BNA ilə bağlı tənqidlər, iradlar hələ də səngiməyib.

"Unikal"a daxil olan yeni məlumatlar isə adıçəkilən qurumda korrupsiyanın, yeyintinin həm miqyasını, həm də mexanizmini aydın şəkildə gözlər önünə sərir. Həmin məlumatlarda bildirilir ki, BNA il ərzində dövlətdən təqribən 200 milyon manat dotasiya alır. Sözügedən vəsait isə Kərimliyə yaxın şirkətlər arasında bölüşdürülür.

Təkcə 2022-ci il ərzində dəyəri yüz mindən çox olan tender layihələrində qalib edilmiş şirkətlər aşağıdakılardır:

"CIG AZERBAİJAN" MMC - 985413.7 AZN

"ADVENTA CO" MMC - 498308.58 AZN

"FIRE SECURITY" MMC - 1890450.03 AZN

"SM CONSTRUCTION SUPPLIES" MMC - 2340394.3 AZN

"N TENSILE" MMC - 160305.83 AZN

"ARIS" MMC - 3 tender layihəsi birlikdə - 1.995.714 AZN

"ORN GROUP" MMC - 644.992 AZN

"FLEX GROUP" MMC - 541.996 AZN

"SEAR SUPPLY" MMC - 2 tender layihəsi üzrə 1.577.038 AZN

"A4 PLAZA" MMC - 138.924.35 AZN

"TECHMASTER" MMC - 3178565.64 AZN

İlk baxışda bu prosesin tenderlər yolu ilə həyata keçirildiyinə dair təəssürat yaransa da, əslində obyektivlikdən söhbət gedə bilməz, yəni satınalma müsabiqələrinin "qaliblər"i əvvəlcədən məlumdur. Marşrutların təşkili, "Bakıkart" üçün post-terminalların, dayanacaqların quraşdırılması və s. bu kimi xidmətlərin həyata keçirilməsi ilə bağlı tenderlərin "qalib"inə çevrilən şirkətlər vasitəsilə silinən pullar isə Vüsal Kərimli ilə yanaşı, onun hakimiyyətin yuxarı eşalonundakı himayədarına çatır. İddialara görə, bu korrupsiya mexanizminin konkret şərti də var - hər hansı xidmət üçün ayrılan vəsaitin 40 faizi "qalib" şirkətə çatır, yerdə qalan 60 faiz isə Kərimli ilə onu himayə edən məmura ötürülür.

BNA rəhbərinin ən ilginc yeyinti "fəndi" isə "Bakıkart"la bağlıdır. "Bakıkart"ın idarəçisi "K Group" şirkətidir. Yeraltı və yerüstü sərnişindaşıma üzrə kartlara yüklənən hər gedişhaqqı məbləğinin 5 faizi xidmethaqqı olaraq məhz "K Group"a çatır. Sərnişindaşıma şirkətlərinin sahibləri indiyədək dəfələrlə BNA rəhbərliyinə müraciət edərək həmin faizin kifayət qədər yüksək olduğunu bildirib və aşağı salınmasını istəyiblər. Onların bu haqlı irad və istəyi isə Vüsal Kərimli tərəfindən hər dəfə rədd olunub. Səbəb kifayət qədər aydındır. Məsələ burasındadır ki, adıçəkilən şirkəti BNA rəhbəri öncə öz adına qeydiyyatdan keçirib. Hətta şirkətin rəsmi saytının - bakikart.az domeni də Kərimlinin adına qeydə alınıb. Lakin sonradan bu cür rəsmi sənədləşmələrin artıq geniş ictimaiyyətə açıq olduğunu öyrənən Agentlik rəhbəri bu dəfə şirkət və saytı öz adından çıxararaq yaxın adamlarının adına rəsmiləşdirib. Lakin V.Kərimli iki məqamda gecikib: əvvəla, şirkətin yerləşdiyi "Çıraq Plaza"nın sahibi məhz BNA-nın icraçı direktorunu himayə edən məmura məxsusdur; ikincisi, domenin məhz Kərimlinin adına olmasını təsdiqləyən screenshot əlimizdə mövcuddur.



Göründüyü kimi, BNA rəhbəri kifayət qədər aydın korrupsiya mexanizmi qurub, nəticə isə göz önündədir: paytaxt nəqliyyatı iflic durumdadır, ona cavabdeh qurumun icraçı direktoru ilə himayədarı isə milyonlarla manat dövlət vəsaiti hesabına oliqarxlaşmaqdadır.

Mövzu ilə bağlı "Unikal"a danışan Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Rüfət Quliyev xatırladıb ki, təxminən 2-3 il öncə Bakı Nəqliyyat Agentliyini tənqid edən ilk millət vəkilidir: "Daha sonra digər deputatlar da öz tənqidi fikirlərini səsləndirdilər".

R.Quliyev onu da əlavə edib ki, tənqidlərə baxmayaraq, Bakıda tıxac problemi həll olunmayıb: "Bildiyimiz kimi, Prezidentin qərarı ilə Bakı Nəqliyyat Agentliyi iki hissəyə bölündü. Bir hissəsi Daxili İşlər Nazirliyinin Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinə verildi. BNA özü isə Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyinə verildi.

Bakıda tıxac məsələsi artıq böyük probleme çevrilib. Bu problem hər gün daha da kəskinləşir. Düşünürəm ki, bunu bir dəfəlik həll etmək çətindir. Əlbəttə ki, müəyyən addımlar atılmalıdır. Bunun üçün mütəxəssislər dəvət edilməlidir. Misal olaraq, Moskva şəhərində tıxac məsələsi artıq praktiki həll olunub. Gərək parlamentin yaz sessiyası başlasın, biz komitə iclaslarında və yaxud sessiyada bu məsələ ilə maraqlanaq.

Bildiyim qədərilə, sözügedən problemlərlə əlaqədar Bakı Şəhər İcra Hakimiyyətində müəyyən addımlar atılır. Gərək bu məsələ Bakı şəhəri və Bakının kəndləri də daxil olmaqla, yəni qlobal formada həll olunsun.

Onu da qeyd etmək istərdim ki, indi müəyyən proseslər gedir. Aldığım məlumata görə, BNA-nın fəaliyyəti ilə bağlı hesabat hazırlanır və təftiş aparılır. Maliyyə problemləri ilə əlaqədar suallar verilir. Ümumiyyətlə, BNA-da böyük problemlər var. Bu problemlər hələ 3-4 il əvvəldən başlamışdı.

Qanunvericiliyə əsasən, bir dövlət qurumu bölünürsə, ləğv olunursa və yaxud digər bir dövlət qurumuna təhvil verilirsə, orada maliyyə sənədləri yoxlanılır, təftiş aparılır. Yəni, həmin qurumun maliyyə fəaliyyətinə qiymət verilir. Ondan sonra isə müəyyən addımlar atılır", - deyə deputat qeyd edib.

Nəqliyyat üzrə ekspert Elməddin Muradlı isə "Unikal"a açıqlamasında bildirib ki, dövlət tərəfindən Bakı Nəqliyyat Agentliyinə külli miqdarda pul ayrılır: "Tenderlər vasitəsilə bu vəsaitlərin müxtəlif şirkətlərə yönləndirilməsi baş tutur. Hətta pandemiyadan zərər çəkən ictimai nəqliyyatın dayanıqlılığını təmin etmək və ayaqda qalmasına kömək məqsədilə ayrılan 7 milyon manat vəsait Bakı Nəqliyyat Agentliyi tərəfindən heç bir səbəb olmadan yalnız "BakuBus"un balansına köçürüb. Həmin puldan digər daşıyıcı şirkətlərə 1 qəpik də verilməyib.

Bakı Nəqliyyat Agentliyi tərəfindən hərəkətin təşkili ilə bağlı bir çox görülən işlər olub, amma nədənsə, həmin işlər yalnız şəhərin mərkəzində olur. Məsələn, Qaradağ rayonuna baxsanız görərsiniz ki, elə bil ucqar bir bölgədəsiniz. Şəhərin mərkəzindən kənar ərazilərdə vəziyyət çox acınacaqlıdır.

Bu baxımdan düşünürəm ki, BNA bu yanaşmanı dəyişməlidir. İnsanlara daha yaxın xidmət təşkil olunmalıdır. Bu sahədəki problemlərdən nə qədər danışsaq, azdır. Hədsiz dərəcədə problemlər var. Ümumiyyətlə, yanaşmalar dəyişməlidir. Təəssüflər olsun ki, bu barədə nə qədər deyilsə də, ölçü götürülmür.

Mənim hesablamalarıma görə, BNA-ya ayrılan vəsaitlər doğru-düzgün istiqamətləndirilsəydi, Bakıda hərəkətin təşkili və digər məsələlərlə bağlı xeyli iş görmək olardı.

Digər tərəfdən, daşıyıcı şirkətlərin qazancından 5% tutulma məsələsi var. Belə ki, həmin şirkətlərin topladığı vəsaitin 5%-i "BakıKart"a köçürülür. Bu, çox acınacaqlı bir vəziyyətdir. O qaydanı kimin müəyyənləşdirdiyini heç kim bilmir. Özbaşına olaraq belə bir qərar qəbul ediblər ki, həmin vəsait tutulmalıdır. Bu, daşıyıcı şirkətlərə çox ağır təsir göstərir. Daşıyıcı şirkətlər təklif irəli sürmüşdülər ki, 1% vəsaitin tutulması kifayət edir. Biz də bu təklifi dəstəkləmişik. 5% isə hədsiz dərəcədə çoxdur. Ona görə də, BNA tərəfindən bu məsələyə bir daha baxılmalıdır. Mənim bildiyim qədərilə, bu işin arxasında iki məmur var. Sözügedən vəsaitin cəmi 1-2%-i gedib çatır. Yerdə qalan vəsait isə həmin məmurların cibinə gedir. "BakıKart" sistemi onsuz da çökmək üzrədir. Təəssüf ki, təkmilləşdirilməsi üçün iş görmürlər. Artıq texniki nasazlıq, və s. digər məsələlər üzə çıxır. Bir gün "BakıKart"ın çökməsinin şahidi olacağıq, çünki proses ona doğru gedir. Texniki dəstək vaxtında aparılmır. Ola bilsin ki, şirkət maliyyə vəsaitini vaxtında ala bilmədiyi üçün məsələyə laqeyd yanaşır".

*Seymur Əli*

# Azərbaycandan region "oyunçuları"na mühüm mesaj: "Səbr limiti sonsuz deyil"

***Bu günlərdə Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bir sıra mühüm məqamlara toxunub. Ölkə başçısı Rusiyanın ərazimizdəki sülməramlı qüvvələrinin fəaliyyəti, Zəngəzur dəhlizi və digər məsələlər barədə əhəmiyyətli mesajlar verib.***

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, deputat Ziyafət Əsgərov "Unikal"a açıqlamasında bildirib ki, 10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanatda birbaşa göstəriş var ki, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat bağlantısı olmalıdır.

Komitə sədri bildirib ki, Ermənistanın baş naziri Nikol Paşinyan bu bəyanata qol çəkib: "Bundan boyun qaçıra bilməzlər. Dəfələrlə cənab Prezident bildirib ki, Zəngəzur dəhlizi açılacaq. Ötən gün Ermənistanın baş naziri Nikol Paşinyan da mətbuat konfransında bəyan etdi ki, Naxçıvana yol açılacaq. Gördülər ki, bu məsələni uzatmağın mənası yoxdur. Ermənistan tərəfi başa düşür ki, bunun başqa alternativi yoxdur, bu, onların öhdəliyidir. Bu yolun açılmasında Ermənistanın özünün də marağı olmalıdır. Onlar bu yoldan istifadə edəcək və mənfəət götürəcəklər. Ermənsitan əvvəl-axır buna gələməlidir".



Z.Əsgərov qeyd edib ki, Ermənistan bəyanatda göstərilən öhdəliklərin hamısını yerinə yetirəcək və yetirməlidir: "Bu, Ermənistanın hüquqi vəzifəsidir. Zəngəzur dəhlizi Azərbaycanın inkişafı üçün çox böyük perspektivi olan yoldur. Ötən gün Prezident İlham Əliyev qeyd etdi ki, bu nəinki iqtisadi, siyasi, həm də geostrateji layihədir. O baxımdan ki, Azərbaycanın digər hissələrini də Naxçıvanla birləşdirir, Azərbaycanla Türkiyə arasında birbaşa yol açılır. Ermənistan bunu uzatmağa çalışsa da, sonda bu ölkənin baş naziri özü də etiraf etdi ki, onlar bu yolun açılmasına hazırdırlar və açılacaq".

Politoloq Elxan Şahinoğlu bizimlə söhbətində deyib ki, Prezident İlham Əliyev televiziya kanallarına verdiyi geniş müsahibədə Rusiya hərbi kontingentinin Qarabağdakı missiyasının 2025-ci ildə başa catacağını bir daha xatırladıb. Onun fikrincə, bununla İlham Əliyev həm Moskvaya, həm İrəvana, həm də Qarabağdakı separatçılara mesaj göndərib ki, rəsmi Bakı Rusiya hərbi kontingentinin Qarabağda qalma müddətini uzatmayacaq və onlar siyasətlərini Bakının bu qərarına görə müəyyənləşdirməlidirlər:

"İlham Əliyevin bu yanaşması Kremlin xoşuna gəlməyəcək. Moskva Rusiya hərbi kontingentinin Qarabağda qalma müddətini uzatmaq istəyir. Ancaq Moskva başqa bir dilemmayla da üzləşib. Qarabağda Rusiya hərbi kontingentini Ermənistanın baş naziri Nikol Paşinyan da istəmir, ancaq onun arqumenti fərqlidir. İlham Əliyevin açıqlamasıyla eyni gündə Nikol Paşinyan Qarabağdakı Rusiya hərbi kontingentinin beynəlxalq qüvvələrlə əvəz olunması təklifini təkrarlayıb. Bu da Kremlin xoşuna gəlməyib. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov deyib ki, Qarabağa BMT sülhməramlılarının missiyası münaqişənin hər iki tərəfinin razılığı ilə göndərilə bilər. Peskov bu cümləsiylə Rusiya prezidenti Vladimir Putinin mesajını Paşinyana ünvanlayıb. Bu məsələdə Moskva ilə Bakının maraqları üst-üstə düşür. Kreml İlham Əliyevin "Rusiya hərbi kontingentinin Qarabağdakı missiyasının vaxtı 2025-ci ildə başa catacaq" fikrinə münasibət bildirməzkən, Nikol Paşinyanın "Rusiyanı BMT əvəz etsin" fikrinə dərhal cavab verib. Məsələ sadədir. Azərbaycanın 2020-c il 10 noyabr bəyanatına görə Rusiya hərbi kontingentinin Qarabağda qalma müddətini uzatmamaq səlahiyyəti var və Kreml buna qarşı rəsmi etiraz bildirmir, Ermənistanın isə Rusiyanı BMT ilə əvəz etmək səlahiyyəti yoxdur. Ancaq bu bizi rahat etməməlidir. Kremlin Rusiya hərbi kontingentinin bölgəni tərk etməməsi üçün erməni separatçıları ilə və Qarabağa göndərdiyi Ruben Vardanyanla birgə Azərbaycana qarşı müxtəlif təxribatlar hazırlayacağı istisna deyil. Bütün hallarda Azərbaycanda vahid mövqe formalaşıb: Rusiya hərbi kontingenti 2025-ci ildə Qarabağı tərk etməlidir".

Siyasi şərhçi Aqşin Kərimov isə hesab edir ki, Prezident İlham Əliyevin telekanallara müsahibəsi Azərbaycan dövlətinin 2023-cü il üzrə strateji prioritetlərinin elanı və bunun uzunmüddətli perspektiv üçün yekunların hazırlanması təlimatlarıdır. Onun qənaətincə, Azərbaycan Ermənistan sülhə razılıq versə belə, özünün hərbi arsenalındakı müasir silahların sayını genişləndirir, xüsusi təyinatlı qüvvələrdəki şəxsi heyəti çoxaldır, ordunun peşəkar şəkildə qurulmasını davam etdirir. Çünki Ermənistan müharibədən sonrakı reallıqlarda da revanş hissinə qapılır və Hindistandan, İrandan silahlar almaqla işğal siyasətinə qayıdacağına işarə edir: "Ancaq Azərbaycan Ermənistanla mümkün üçüncü müharibə ehtimalına qarşı elə bir sərhəd qurur ki, bu dəfə İrəvana endiriləcək zərbənin miqyası maksimal hədlərdə olsun. İlham Əliyevin mesajlarından da çıxarış odur ki, Azərbaycanın ordu balansında hələ ictimaiyyət üçün açıqlanmayan elə ən müasir silahlar var ki, Ermənistanın aldıqlarını metal parçasına çevirər, ümumiyyətlə, həmin ölkəni müstəqil subyekt kimi varlığını sual altına qoyar. Azərbaycan ordusundakı elit qüvvələrinin peşəkarlığı, sərhəd zonasındakı yüksəkliklər ilə ən müasir silahların harmoniyasını qursaq, görürük ki, Azərbaycan Ermənistanın həm taktiki, həm də strateji dərinliklərinə zərbələr endirib oralarda nəzarəti bərpa etmək iqtidarındadır. Deyilənləri, Ermənistanın sərhədlərin delimitasiyasından boyun qaçırması fonunda qiymətləndirəndə, ortaya hərbi güc tətbiqi çıxacaq və İlham Əliyev bunun anonsunu "Delimitasiyanı istəmirlər - heç lazım da deyil. Deməli, sərhəd bizim lazım bildiyimiz yerdən keçəcək" deməklə verir".

Müsahibimizin fikrincə, ölkə başçısının mövqeyində o da anlaşılır ki, Azərbaycanın səbir kasasının dərinliyi limitsizdir: "Təbii ki, həddən sonra Azərbaycan antiterror əməliyyatları keçirmək hüququndan istifadə edərək cinayətkar ünsürləri və onlara havadar olan milyarderləri zərərsizləşdirə bilər. Prezident açıq qalan məsələləri natamam qalmış iş kimi interpretasiya edir və "bunu tədricən yoluna qoyacağıq" deməklə mümkündür ki, üç versiyanı dilə gətirir: "Azərbaycan Qarabağ ermənilərinin ölkənin ictimai-siyasi həyatına inteqrasiyası üçün planları təqdim edəcək. Daha sonra ermənilərdən buna cavab gözləyəcək. Əgər qarışıq və qeyri-müəyyən mövqelər, üstəgəl separatçıların silahlı təxribata əl atmaq cəhdləri olsa, Azərbaycan antiterror əməliyyatlarını başladacaq".

***A.Kəlbiyev***



## "Öz evlərini tiksinlər, qonşusu imkansızdırsa..." - Deputat

***Deputat Aqil Abbas imkanlı şəxslərin Qarabağda evlərini özləri tikməsi təklifini dəstəklədiyini bildirib.***

O "Unikal"a açıqlamasında qeyd edib ki, özü də bir neçə dəfə bu məsələni qaldırıb: "Mən də bir neçə dəfə bu məsələni qaldırmışam ki, imkanlı adamlar Qarabağda öz evlərini tiksinlər. Bununla yanaşı, qonşusu imkansızdırsa, ona da ev tikməyə kömək etsinlər. İstəyirəm ki, bu məsələ tezləşsin. Bu olarsa, işğaldan azad olunmuş ərazilərdə rayon və kəndlərin bərpası sürətlənər. Doğrudur, hər rayonun baş planı var. İlk öncə infrastruktur qurulmalıdır. İşıq, su, qaz və s. məsələr həll olunmalıdır. Həmçinin, həmin yerlər minalardan təmizlənməlidir ki, arxayınçılıq olsun".

Qeyd edək ki, saytımızda bu məsələ ilə bağlı Prezidentin Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarındakı xüsusi nümayəndəliyinin açıqlaması yayımlanmışdı.

***Anar Kəlbiyev***

## Məzahir Pənahov bir həftədə 2 oğluna dəbdəbəli toy etdi

***Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov oğullarına toy edib.***

"Unikal" manset.az-a istinadən xəbər verir ki, MSK rəhbəri bir həftədə iki möhtəşəm toy mərasimi keçirib. Belə ki, M. Pənahov əvvəlcə kiçik oğlu Araz Pənahova "Buta Palace"da, elə həmin həftə ərzində də böyük oğlu Məhəmməd Pənahova "Fairmont" hoteldə dəbdəbəli toy edib. Məhəmməd Həlimə adlı xanımla, Araz isə Nərgiz adlı xanımla ailə həyatı qurub. Mərasimdə nazirlər, deputatlar, icra başçıları, generallar və nüfuzlu iş adamları iştirak edib.

Toyu Xalq artistləri Röya Ayxan, Eyyub Yaqubov, Əməkdar artist Xəyyam Nissanov idarə ediblər.

MSK sədri Məzahir Pənahov sayta açıqlamasında toy mərasimlərinin keçirildiyini təsdiq edərək dəstəyi asıb.

## Ötən il 100-dən çox şəxs işinə bərpa edilib

***2022-ci il ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti (DƏMX) müxtəlif müəssisələrdə 104 işçinin əmək müqaviləsinə qanunvericiliyin tələbləri pozulmaqla xitam verildiyini müəyyən edib.***

Bu barədə "Unikal"a Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən xəbər verilib. Xidmət tərəfindən görülən tədbirlər nəticəsində həmin işçilərin hər biri əvvəlki işlərinə bərpa etdiriliblər.

Həmçinin son bir ildə işəgötürənlər tərəfindən 628 min manatdan çox məbləğdə sosial ödənişlərin işçilərə ödənilməsinin gecikdirildiyi müəyyən olunub. Görülən tədbirlər nəticəsində həmin vəsaitin işəgötürənlər tərəfindən işçilərə ödənilməsi təmin edilib.

Ödənilən vəsaitin 95 faizini əmək haqları, qalan hissəsini işəgötürənlər tərəfindən ödənilməli olan sosial müavinət və kompensasiyalar təşkil edib.

# Prezident bu məhkəmələrə hakimlər təyin etdi - SƏRƏNCAM



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncama əsasən, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq, hakim vəzifəsinə aşağıdakı namizədlər birinci instansiya məhkəmələrinin hakimləri təyin edilib-lər:

**ağır cinayətlər məhkəmələri üzrə:**

**Bakı Ağır Cinayətlər Məhkəməsi**

Quliyev Vüqar Elbrus oğlu
Namazov Fərid Arif oğlu
Gəncə Ağır Cinayətlər Məhkəməsi
Məmmədov Abdulla Elşad oğlu
Məmmədzadə Mikayıl Maarif oğlu
Lənkəran Ağır Cinayətlər Məhkəməsi
Məmmədov Neymət Hüsən oğlu
Şəki Ağır Cinayətlər Məhkəməsi
Məmmədov Xaliq Musa oğlu

**inzibati məhkəmələr üzrə:**

**Bakı İnzibati Məhkəməsi**

Cəlalov Bəhlul Məmmədcəfər oğlu
Musayeva Ləman Samir qızı
Gəncə İnzibati Məhkəməsi
Əliyeva Gülşən Talıb qızı
Şirvan İnzibati Məhkəməsi
Musayev Şahəli Calal oğlu
kommersiya məhkəmələri üzrə:
Bakı Kommersiya Məhkəməsi
Namazova Günay Rüstəm qızı
Şirvan Kommersiya Məhkəməsi
Abbasov Zaur Vahid oğlu

**Bakı şəhərinin rayon məhkəmələri üzrə:**

**Bakı şəhəri Binəqədi Rayon Məhkəməsi**

Bağırov Zamiq Rəşid oğlu
Bakı şəhəri Xətai Rayon Məhkəməsi
Abdullayeva Aynur Aydın qızı
Eyvazova Samirə Əli qızı
Sadıxov Rəfail Adil oğlu

**Bakı şəhəri Xəzər Rayon Məhkəməsi**

Cəfərzadə İlham Nizami oğlu
Rüstəmov Emin Şahin oğlu
Bakı şəhəri Qaradağ Rayon Məhkəməsi
Aslanova Gülnar Faiq qızı

**Bakı şəhəri Nəsimi Rayon Məhkəməsi**

Abbasov Nail İbad oğlu
Heydərova Əfsanə Elbrus qızı
Bakı şəhəri Sabunçu Rayon Məhkəməsi
Mirzəliyev Ruslan Əsəd oğlu
Rəcəbova Elnurə Hüseyn qızı

**Bakı şəhəri Suraxanı Rayon Məhkəməsi**

Kərimov Namiq Həsrət oğlu
Mirzəyeva Firuzə Fuad qızı
Mirzəyeva Ünsüyyət Hacımehdi qızı
Bakı şəhəri Yasamal Rayon Məhkəməsi
Əlizadə Fariz Ariz oğlu
Sultanova Məmmədova Ayşən Ramiz qızı

**rayon (şəhər) məhkəmələri üzrə:**

Gəncə Şəhər Məhkəməsi
Əlizadə Elxan Novruz oğlu
Fərhadov Fuad Əlirza oğlu
Quba Rayon Məhkəməsi
Babayev Aydın Vahid oğlu
Lənkəran Rayon Məhkəməsi
Pənahov Anar Elman oğlu
Neftçala Rayon Məhkəməsi
Quliyev Samir İdris oğlu
Salyan Rayon Məhkəməsi
Məmmədli Ənnağı Əbdül oğlu
Samux Rayon Məhkəməsi
Kərimova Tərifə Əbülfət qızı
Sumqayıt Şəhər Məhkəməsi
Həxiyeva Şəbnəm Səlim qızı
Quliyev Ramiz Mübariz oğlu
Şəki Rayon Məhkəməsi
Vəliyev Elşən Yaşar oğlu
Şəmkir Rayon Məhkəməsi
Məhəmmədi Həvayət Kəmaləddin qızı

**Şirvan Şəhər Məhkəməsi**

Mustafayev Ceyhun Mustafa oğlu.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

# Əli Əsədovdan doktorantura ilə bağlı qərar



***Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydalarında dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxçıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:1700

# Azərbaycanda son sutkada 4 nəfər koronavirusdan öldü

***Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 80 yeni yoluxma faktı qeydə alınıb, 66 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 4 nəfəri vəfat edib.

Azərbaycanda son sutkada koronavirus (COVID-19) əleyhinə 351 vaksin vurulub. Bildirilib ki, bir gündə birinci doza üzrə 203, ikinci doza üzrə 30, üç və daha çox doza üzrə vaksinasiya olunanların sayı isə 90-dır. Həmçinin pozitiv nəticədən sonra buster doza üzrə vaksinasiya olunanların sayı 28-dir.

# Qubad İbadoğlunun partiyasının fəaliyyətinə xitam verildi



***Azərbaycan Demokratiya və Rifah Partiyasının fəaliyyətinə xitam verilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı partiyanın sədri Qubad İbadoğlu paylaşım edib. Bildirib ki, Partiyanın mərkəzi icra strukturlarının buraxılması və təyinatlı rəhbər şəxslərin fəaliyyətlərinə xitam verilməsinə dair sərəncam imzalayıb: "Böyük ehtimalla fəaliyyətimizi bundan sonra ADR Hərəkatı olaraq davam etdirəcəyik", - deyə o qeyd edib. Qeyd edək ki, "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununun 4.7.-ci maddəsinə görə "Siyasi partiyanın dövlət qeydiyyatına alınmadan fəaliyyət göstərməsinə yol verilmir. Qanuna edilən dəyişikliyə görə, üzvlərinin sayı 4 500-dən aşağı olan siyasi partiyalar ləğv oluna bilər. Bu səbəbdən də ADR-in partiya olaraq fəaliyyətinə xitam verilib.

# Nazirlik bu qurumla bağlı qərar VERDİ

***Dövlət Geoloji İnformasiya Fondunun hüquqi statusu müəyyənləşib.***

"Unikal" əbər verir ki, bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollegiyası qərar qəbul edib.

Qərara əsasən, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Geoloji İnformasiya Fondunun Əsasnaməsi təsdiqlənib.

Əsasnaməyə görə, Fondun müstəqil balansı, Nazirlik tərəfindən onun istifadəsinə verilmiş əmlakı, xəzinə hesabı, Nazirliyin və Fondun adının yazıldığı və "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, həmçinin Azərbaycan Respublikasının Dövlət Gerbinin təsviri həkk olunmuş möhürü, müvafiq ştampları və blankı var.

Eyni zamanda Fondun əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri var.

Qeyd edək ki, Dövlət Geoloji İnformasiya Fondu daha əvvəl Milli Geoloji Kəşfiyyat Xidmətinin tərkibində olub. Prezident İlham Əliyevin 27 aprel 2022-ci il tarixli Fərma-



nı ilə xidmət Nazirliyin tabeliyində Geoloji Kəşfiyyat Agentliyi publik hüquqi şəxsə çevrilib. Eyni zamanda nazirliyə Dövlət Geoloji İnformasiya Fondunun fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı təkliflərini təqdim etmək tapşırılıb.

# "Ermənistan Laçın dəhlizi ilə bağlı Azərbaycanla danışıqlarda iştirak etməməlidir" - Erməni spiker

***Ermənistan Laçın dəhlizi ilə bağlı Azərbaycanla danışıqlarda iştirak etməməlidir.***

"Unikal" xəbər verir ki, bunu Ermənistan parlamentinin spikeri Alen Simonyan deyib.O bildirib ki, Ermənistan 9 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatda Laçın dəhlizi ilə bağlı hissədə tərəf deyil.

Simonyan qeyd edib ki, Qarabağdakı ermənilərin Azər-



baycanla birbaşa müzakirələr aparmaq, birbaşa danışmaq imkanı var və bununla onlar özləri məşğul olurlar.

"Ermənistan onların istənilən qərarını dəstəkləyəcək", - erməni spiker əlavə edib.

Simonyanın sözlərinə görə, Ermənistan xarici işlər naziri Rusiya və Azərbaycan xarici işlər nazirləri ilə dekabrda Moskvada keçirilməsi planlaşdırılan üçtərəfli görüşdə Laçın dəhlizi ilə bağlı vəziyyətə görə iştirak etməyib.

# Nazirin müşaviri tualet problemi olan məktəbə getdi

***Elm və təhsil nazirinin müşaviri Elnur Nəsibov, nazirlik yanında İctimai Şuranın sədri Günel Səfərova, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Saatlı Uşaq və Ailələrə Dəstək Mərkəzinin nümayəndələri İmişli rayonu Aranlı kənd 1 nömrəli tam orta məktəbində olublar.***

Bu barədə "Unikal"a nazirliyin Mətbuat Xidmətindən məlumat verilib.

Məktəbdə mövcud şəraitlə yaxından tanış olan qonaqlar məktəb kollektivi və valideynlərlə görüşüb, onlarla səmimi söhbət aparıblar.

Nazirin müşaviri Elnur Nəsibov son günlər sözügedən məktəblə bağlı gündəmə gələn məsələyə diqqət çəkərək bildirib ki, Elm və Təhsil Nazirliyi vətəndaşların, eləcə də müəllimlərin, şagirdlərin müraciət və problemlərini hər an dinləməyə hazırdır və bu məsələlərə xüsusi həssaslıqla yanaşaraq onların çevik həllinə çalışır. Məktəbdə sağlam pedaqoji mühitin mövcudluğunun əsas şərtlərdən biri olduğunu vurğulayan E.Nəsibov məhz belə mühitin təhsil müəssisəsinin göstəricilərinin daha da yaxşılaşmasına və onun inkişafına şərait yaratdığını bildirib. Məktəb infrastrukturunun yenidən qurulması istiqamətində görülən işləri diqqətə çatdıran nazirin müşaviri Mil-Muğan regionundakı qəzalı vəziyyətdə olan məktəblərin yenidən tikintisi və ya əsaslı təmiri ilə bağlı işlərin



davamlı olaraq həyata keçiriləcəyini bildirib.

E.Nəsibov həmçinin qəzalı vəziyyətdə olan Aranlı kənd 1 nömrəli tam orta məktəbi üçün cari ildə yeni tədris binasının layihələndirmə işlərinə başlanılacağını vurğulayıb.

# Əhməd İsmayılov ötən ilin yekunlarına dair hesabat verdi

***Medianın İnkişafı Agentliyinin 2022-ci ilin yekunlarına dair hesabat konfransı keçirilib.***

"Unikal"xəbər verir ki, konfransda Agentliyin icraçı direktoru Əhməd İsmayılov 2022-ci ildə görülən işlər barədə məlumat verib.

O bildirib ki, "Media haqqında" Qanun 8 fevral tarixində təsdiqlənib, MEDİA Agentliyi tərəfindən hazırlanmış 8 normativ hüquqi akt layihəsi imzalanıb, qəzet, xəbər saytı və jurnalistlərin məlumatlarının sistemləşdirilməsi məqsədilə Media Reyestri fəaliyyətə başlayıb.

İcraçı direktor bildirib ki, Media subyektlərinin (audiovizual media subyektləri istisna olmaqla) 3 il müddətinə vergilərdən azad edən qanun layihəsi hazırlanıb. "Jurnalistlərə güzəştli ipoteka kreditindən istifadə etmək hüququ tanınıb, media məhsullarının və həmin məhsulların istehsalı (nəşri) ilə bağlı kağızın idxalı və satışı ƏDV-dən azad olunub" - deyə İcraçı direktor vurğulayıb.




O bildirib ki, qanun layihsinə əsasən, media subyektləri öz fəaliyyətlərindən əldə etdikləri gəlirlərin, reklam gəlirlərinin, habelə onlara verilən müvafiq yardımların gəlir, mənfəət və sadələşdirilmiş vergilərdən, istehsal etdikləri media məhsullarının təqdim edilməsinin əlavə dəyər vergisindən azad edilməsini ehtiva edir. Ə.İsmayılov qeyd edib ki, qanun layihəsi maraqlı orqanlarla tam razılaşdırılıb və hökumətdə baxılmaqdadır.

"Çap mediasının inkişafı və rəqəmsal transformasiyanın dəstəklənməsi ilə bağlı strateji plan hazırlanıb və aidiyyəti üzrə təqdim edilib" - deyən Ə.İsmayılov bildirib ki, region mediasının inkişafı ilə bağlı da diaqnostik icmal hazırlanmaqdadır: "Onu da bildirim ki, milli məzmun, sosial reklam və ictimai faydalı elanların maliyyələşdirilməsi yolu ilə mediaya dəstək mexanizmləri barədə beynəlxalq təcrübənin təhlili və təkliflər hazırlanaraq aidiyyəti üzrə təqdim edilib".

Çap mediasının rəqəmsal transformasiyasının dəstəklənməsi məqsədilə "E-köşk" qəzet və jurnalların rəqəmsal abunə və satış platforması, həmçinin Azərbaycanın ilk milli rəqəmsal media təhlil platforması "Metrix" proqramı istifadəyə verilib.

Media Reyestrinə daxil edilən media subyektlərinin və jurnalistlərin sayı açıqlanıb. O bildirib ki, Media Reyestrinə daxil olmaq üçün 200-ə yaxın media subyekti müraciət edib. Onlardan 160-a yaxını Media Reyestrinə daxil edilib. Hazırda da bu proses davam edir. Ə.İsmayılov qeyd edib ki, 180-a yaxın jurnalist isə Media Reyestrinə daxil edilib: "Reyestrə daxil edilmək üçün jurnalistlərin müraciəti isə könüllüdür".

Media Reyestrindən keçməyən media subyektləri məhkəməyə veriləcək. Ə.İsmayılov qeyd edib ki, Reyestrdən keçmək üçün media subyektlərinin kifayət qədər müddəti var və bu müddət ərzində onlar müraciət edə bilərlər. "Bizim əməkdaşlarımız media subyektlərinə bu məsələ ilə bağlı da texniki köməkliyi göstərməyə hazırdırlar. Bizim hansısa media subyekti reyestrə daxil edilməyəndə onlara sanksiya tətbiq etmək hüququmuz yoxdur. Qanunda göstərilən 6 aylıq müddət bitəndən sonra biz onlar haqqında məsələni məhkəmə qarşısında qaldıracağıq. Onların fəaliyyətlərinin davam etdirilib-etdirilməməsi barədə qərarı isə məhkəmə verəcək", - deyə o əlavə edib.

"İstinadla bağlı məsələ hüquqi baxımdan həll edilib, qaydalara əməl etmək isə jurnalistlərin məsuliyyətidir"- deyən icraçı direktor bildirib ki, istinad qaydalarının pozulması ilə bağlı jurnalistlər özləri Media Agentliyinə müraciət etməlidir: "Əgər jurnalist görür ki, onun materialı hansısa saytda istinadsız verilib, bu halda Media Agentıiyinə müraciət edə bilər və Agentlik məsələni araşdırıb tədbir görə bilər. Ancaq müraciət edilmədiyi halda Medianın İnkişafı Agentliyi hesab edir ki, bu məsələ tərəflər arasında razılaşdırılıb, müəllif yazının başqa saytda çıxmasına icazə verib".

Daha sonra qeyd edilib ki, beynəlxalq əməkdaşlığın qurulması çərçivəsində ümumilikdə 14 görüş keçirilib, xarici və beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə 4 tədbir təşkil edilib, Agentlik media ilə bağlı 11 beynəlxalq tədbirdə təmsil olunub. Milli Mətbuat Günündə 20-dək ölkədən olan xarici media nümayəndələri, ekspertlər və yerli media nümayəndələri daxil olmaqla ümumilikdə 200 nəfərin iştirakı ilə Şuşa şəhərində "Mediada qlobal trendlər, yeni çağırışlar" Beynəlxalq Media Forum keçirilib.

Əhməd İsmayılov bildirib ki, MEDİA Agentliyində 500-ə yaxın jurnalist və media subyekti ilə görüşlər keçirilib, 60-dan çox dövlət qurumunun mediaya məsul əməkdaşları üçün seminarlar təşkil edilib, media menecerlərin və jurnalistlərin peşəkarlığının artırılması məqsədilə yerli və xarici mütəxəssislərin iştirakı ilə 800 nəfəri əhatə edən təlimlər keçirilib. Anadolu Agentliyi ilə birgə jurnalistlər üçün hazırlanan onlayn videotəlim platformasına dair işlər yekunlaşmaq üzrədir.

Daha sonra konfransda MEDİAnın İcraçı direktoru jurnalistləri maraqlandıran sualları cavablandırıb.

***Anar Kəlbiyev***

# Sabiq sədr 135 min manat bələdiyyə əmlakını mənimsəyib - rəsmi

***Yevlax rayon Aran Bələdiyyəsinin sabiq sədri Qəşəm Əkbərovun qanunsuz hərəkətləri ilə bağlı rayon prokurorluğunda başlanmış cinayət işi üzrə istintaq tamamlanıb, onun vəzifə səlahiyyətlərindən sui-istifadə edərək 135 min 246 manat məbləğində bələdiyyə əmlakını mənimsədiyi müəyyən edilib.***

"Unikal" xəbər verir ki, bu barədə rayon prokurorluğundan məlumat verilib.



İstintaqın gedişində Qəşəm Əkbərovun vəzifədə olduğu 2013-2020-ci illər ərzində vəzifə səlahiyyətlərindən sui-istifadə edərək 135 min 246 manat məbləğində bələdiyyə əmlakını mənimsəməsi, habelə bələdiyyənin hüquq və qanuni mənafelərini əhəmiyyətli dərəcədə pozmasına əsaslı şübhələr müəyyən edilib.

Toplanmış sübutlar əsasında Qəşəm Əkbərova Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə) 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) və 310-cu (vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə) maddələri ilə ittiham elan edilib.

Cinayət işi üzrə ibtidai istintaq tamamlanaraq baxılması üçün aidiyyəti üzrə Şəki Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

# Kamran Əliyev prokurorlara tapşırıqlar verdi




***Yanvarın 12-si Baş prokuror Kamran Əliyev Sabirabad rayon prokurorluğunun inzibati binasında Sabirabad, Saatlı, İmişli həmçinin digər rayonlardan olan vətəndaşları qəbul edib.***

"Unikal" xəbər verir ki, qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 34 vətəndaşın müraciətində qaldırdıqları məsələlərin, o cümlədən konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları , mülki xarakterli mübahisələrlə bağlı və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

Qəbuldan sonra Baş prokuror əməkdaşlarla görüşlər keçirməklə onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdıqlarını diqqətə çatdırıb.

# Azərbaycan və İtaliya müdafiə nazirləri sənəd imzaladılar

***Yanvarın 12-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov İtaliya Respublikasının müdafiə naziri cənab Quido Krosettonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***




Nazirlikdən "Unikal"a verilən xəbərə görə, əvvəlcə Müdafiə Nazirliyində təntənəli qarşılama mərasimi olub, hər iki ölkənin müdafiə nazirləri fəxri qarovulun önündən keçib. Azərbaycan və İtaliyanın Dövlət Himnləri səsləndirilib.

Quido Krosetto protokola uyğun olaraq "Şərəf kitabı"nı imzalayıb.

Sonra general-polkovnik Zakir Həsənov qonaqları salamlayaraq onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib. Müdafiə naziri nümayəndə heyətini Vətən müharibəsindən sonra bölgədə yaranan hərbi-siyasi vəziyyət barədə məlumatlandırıb.

Azərbaycan və İtaliya arasında hərbi təhsil sahəsində, eləcə də NATO çərçivəsində əməkdaşlığın sürətlə davam etdiyi və bu münasibətlərin yüksək qiymətləndirildiyi vurğulanıb.

General-polkovnik Zakir Həsənov bu səfərin Azərbaycan və İtaliya arasında hərbi əməkdaşlıq sahəsində yeni inkişaf mərhələsinin başlanğıcı olduğunu qeyd edib.

Quido Krosetto isə öz növbəsində göstərilən qonaqpərvərliyə görə təşəkkür edərək hər iki ölkə arasında hərbi əməkdaşlığın genişləndirilməsinin vacibliyini bildirib.

Ölkələrimiz arasında strateji tərəfdaşlığa əsaslanan münasibətlərin inkişaf etdirilməsində qarşılıqlı səfərlərin əhəmiyyəti xüsusi vurğulanıb. Görüşdə Azərbaycan və İtaliya Respublikaları arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahəsində əməkdaşlığın daha da genişləndirilməsi, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

Sonda hər iki ölkənin müdafiə nazirləri təlim və təhsil sahəsində əməkdaşlıq haqqında niyyət protokolunu imzalayıblar.

# AŞPA məruzəçiləri fevralda Azərbaycana səfər edəcəklər

***AŞPA Monitorinq Komitəsinin Azərbaycan üzrə məruzəçiləri Yan Liddel-Qreynqer və Liz Kristoffersen 2023-cü ilin fevralında ölkəyə səfər etməyi planlaşdırırlar.***

"Unikal" xəbər verir ki, bu barədə Avropa Şurasından (AŞ) bildiriblər.

"Məruzəçilər Yan Liddell-Qrancer (Böyük Britaniya) və Liz Kristoffersen (Norveç) 2023-cü ilin fevralında ölkəyə səfər etmək niyyətindədirlər", - deyə beynəlxalq təşkilat qeyd edib.

# "2024-cü ildə Zəngəzur dəhlizinin istifadəyə verilməsi gözlənilir"

## Naqif Həmzəyev: "Azərbaycan və Ermənistan arasında sülh razılaşması əldə edilərsə, Ermənistan ərazisində də bu yolun bərpası prosesinə start veriləcək"

***Milli Məclisin deputatı Naqif Həmzəyev "Unikal"a müsahibə verib. O, Zəngəzur dəhlizinin nə zaman açıla biləcəyindən, Azərbaycanda inflyasiyanın artmasından, ölkəmizdə yeni idarəetmə modelinin tətbiq olunmasından və digər məsələlərdən danışıb.***

***-Naqif müəllim, Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsi zamanı bir daha Zəngəzur dəhlizinin əhəmiyyətindən danışdı. Ermənistan bu dəhlizin açılmasını niyə uzadır və 2023-cü ildə dəhlizin açılması istiqamətində hansı addımların atılması gözlənilir?***

- Təəssüflər olsun ki, Ermənistan hələ də öhdəliyini yerinə yetirmir. Üçtərəfli komissiya formalaşdırıldı, Azərbaycan və Ermənistan arasında kommunikasiyaların bərpa edilməsi ilə bağlı işçi qrup fəaliyyətə başladı və bir neçə dəfə görüşlər keçirildi. Buna baxmayaraq, Ermənistan tərəfi bu məsələdə real addımlar atmaqdan çəkindi, hələ də Ermənistan və Azərbaycan arasında sülh müqaviləsi imzalanmayıb. Sərhədlərin delimitasiya və demarkasiyası ilə bağlı real addımlar atılmayıb. Görünən odur ki, Ermənistan bu reallıqları qəbul etmək istəmir, vaxt udmaq və prosesləri öz xeyrinə dəyişmək istəyir. Hər dəfə danışıqlardan sonra təxribat törədir və yeni zərbələr alır. Onların təxribatları Azərbaycan Ordusu tərəfindən uğurla dəf edilir. Ermənistan hər dəfə öz əməllərinə görə müəyyən dərəcədə peşmançılıq keçirir. Onlar hər dəfə prosesi öz xeyirlərinə dəyişmək istədikdə əksinə, daha da geri düşürlər və proseslər yenidən başlamalı olurlar. Həm Avropa İttifaqının, həm də Rusiyanın moderatorluğu ilə keçirilən üçtərəfli görüşlər Azərbaycanın müəyyənləşdirdiyi gündəlik əsasında həyata keçirilib. Burada aydın bir məntiq var, Ermənistan və Azərbaycan arasında münasibətlər normallaşmalı, kommunikasiyalar açılmalı, Ermənistan Zəngəzur dəhlizinin işə düşməsinə razılaşmalıdır. Azərbaycan istənilən halda Zəngəzur dəhlizinin açılmasını təmin edəcək. Biz proseslərin yumşaq formada reallaşmasını istəyirik. Azərbaycan qalib ölkə olmaqla yanaşı, regionda uzunmüddətli və dayanıqlı sülhün tərəfdarıdır. Region dövlətləri arasında əməkdaşlığın gücləndirilməsini dəstəkləyirik. Çox gözəl anlayırıq ki, müasir dövrdə tək hansısa uğuru əldə etmək çətindir. Bu baxımdan, region dövlətlərinin əməkdaşlıq etməsi, sülh içində yaşaması, bir-birinin ərazi bütövlüyü və suverenliklərinə hörmətlə yanaşması zəruri haldır. Ermənistan tərəfindən də bu addımı gözləyirik. Azərbaycan vaxtından əvvəl Laçın yoluna paralel yeni bir yolu istifadəyə verib. Azərbaycan ərazisində yaşayan erməni əsilli vətəndaşlar bu yoldan humanitar məqsədlər üçün istifadə edə bilərlər. Bu gün həmin yoldan istifadə edirlər. Ermənistan tərəfi də Naxçıvan və Zəngilan arasında həm avtomobil, həm də dəmiryolunun, gələcəkdə isə enerji resurslarının daşınmasını təmin etməlidir. Bu, Ermənistana da fayda verəcək. Bəlkə də Ermənistan rəhbərliyi bunu istəyir, amma onların havadarları bu dəhlizin açılmasına müəyyən dərəcədə maneçilik törədirlər. Onlar gözəl anlayırlar ki, Zəngəzur dəhlizi işə düşəcəyi təqdirdə Azərbaycan daha da güclənəcək, regiondakı yerini möhkəmləndirəcək. Onlar bir məsələni unudurlar ki, dəhliz açılmayacağı halda, Ermənistan blokadada qalacaq və onların xalqı daha çox əziyyət çəkəcək. Azərbaycan Zəngəzur dəhlizinin işə düşməsi üçün öz üzərinə düşən işləri uğurla həyata keçirir. Həm avtomobil, həm də dəmiryolunun çəkilməsi sürətlə davam etdirilir. Böyük ehtimal ki, bu ilin sonuna yaxın Azərbaycan tərəfində işlər yekunlaşacaq. Azərbaycan və Ermənistan arasında sülh razılaşması əldə edilərsə, Ermənistan ərazisində də bu yolun bərpası prosesinə start veriləcək. Bu, ən pis halda 2024-cü ildə Zəngəzur dəhlizinin istifadəyə verilməsi ilə nəticələnə bilər.



***-Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması ilə bağlı danışıqlar davam edir. Ermənistan bu məsələni də uzatmağa çalışır. Onlar sülh sənədinin imzalanmasını uzatmaqla nəyə nail olmaq istəyirlər?***

-Ermənistan sülh müqaviləsinin imzalanmasını uzatmaqla prosesləri öz xeyrinə dəyişmək istəyir. Ermənistan rəhbərliyinin açıqlamalarından da aydın olur ki, onlar gözəl başa düşürlər ki, Qarabağa hansısa statusun verilməsi məsələsi mümkün deyil. Azərbaycan tamamilə buna yox deyir. Ermənistan Azərbaycanla münasibətlərin normallaşmasını sürətləndirməlidir. Ermənistanın baş naziri Nikol Paşinyanın açıqlamalarından başa düşülür ki, Rusiyanın moderatorluğu ilə təklif olunan sənəd Ermənistan tərəfindən imzalanmağa hazırdır. Əks təqdirdə, Ermənistanı çətin və ağır günlər gözləyə bilər. Bu baxımdan, Azərbaycan səbr edir, gözləyir və Ermənistanı sülhə məcburetmə siyasətini həyata keçirir. Düşünürəm ki, gec-tez Ermənistan sülh masasına oturacaq. Sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı işlərə start veriləcək. Əks halda, cənab Prezidentin qeyd etdiyi kimi, Ermənistanla sərhədlər müəyyənləşdirilməyəcəyi, onlar sülhə razılıq verməyəcəkləri təqdirdə Azərbaycanın istədiyi yerdən sərhədlər keçəcək.

***-Dövlət başçısı müsahibəsi zamanı onu da bildirdi ki, Xankəndidə Azərbaycan bayrağı altında yaşamaq istəyənlər üçün şərait yaradılacaq. "Azərbaycan vətəndaşları kimi, onların hüquqları, təhlükəsizliyi də təmin olunacaq. Kim bizim vətəndaş olmaq istəmirsə, yol bağlı deyil, açıqdır. Gedə bilərlər". Necə düşünürsüz, birgə yaşayış necə ola bilər? O baxımdan ki, bununla razılaşmayanlar da var. Birgə yaşayış məsələsi necə tənzimlənə bilər?***

-Azərbaycan 44 günlük Vətən müharibəsində Qarabağ və Şərqi Zəngəzuru işğaldan azad etdi. Yalnız, Xankəndi və onun ətrafında olan ərazilərdə erməni əsilli insanlar yaşamaqdadır. Təəssüflər olsun ki, burada normal vətəndaşlarla yanaşı, separatçı qüvvələr də var. Üçtərəfli Bəyanatın müddəalarına əsasən, Rusiya sülhməramlıları bu ərazilərə daxil olduğu müddətdə paralel olaraq erməni silahlı dəstələri bu əraziləri tərk etməli idilər. Hələ də bu proses baş tutmayıb. Separatçıların və Ermənistan silahlı qüvvələrinin bir hissəsi qanunsuz olaraq bu ərazilərdə mövcuddur. Azərbaycan ilk növbədə həmin silahlı dəstələrin çıxarılmasını tələb edir və ən qısa zamanda buna nail olacaq. Daha sonrakı prosesdə isə 1992-ci ilə qədər bu ərazilərdə yaşamış Azərbaycan vətəndaşı olmuş və həmin insanların övladları, nəvələri, ən yaxın qohumlarının siyahıları müəyyənləşdiriləcək. Həmin insanlar bu ərazidə Azərbaycan vətəndaşlığını qəbul edərək öz həyatlarını davam etdirəcəklər. Burada, adi və sadə məntiq var. Azərbaycan vətəndaşı olmuş və bu ərazilərdə yaşamış insanlar, istədikləri təqdirdə təkrarən Azərbaycan vətəndaşlığını qəbul edəcəklər, burada yaşayacaqlar. Azərbaycan tərəfi də onların həm təhlükəsizliyini, həm də sosial təminatını həyata keçirəcək. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən quruculuq, abadlıq, yenidənqurma işləri bu ərazilərdə də tətbiq ediləcək. Bu ərazilər də ölkəmizin ən inkişaf etmiş yerlərindən birinə çevriləcək. Düşünrəm ki, ermənilər gec-tez bu seçimi etməlidirlər, prosesləri uzatmaq olmaz. Tezliklə öz qərarlarını verməlidirlər. Separatçı qüvvələr tərəfindən dustaq saxlanılan erməni əsilli vətəndaşlara azadlıq verilməlidir. Onlar öz seçimlərini etməlidirlər. Azərbaycan vətəndaşlığını qəbul etməyən erməni əsilli həmin insanlar isə asanlıqla Laçın yolu vasitəsilə bu əraziləri tərk edə bilərlər. Ermənistana gedib orada yaşaya bilərlər.

***-İnflyasiya bu gün bütün dünyada ciddi bir problemə çevrilib. Ötən il ölkəmizdə də inflyasiya yüksək oldu. Bunu ərzaq və digər məhsulların qiymətindəki artımlardan da görmək olar. Bu qiymət artımlarını tənzimləmək üçün hansı addımlar atılmalıdır?***

-Hazırda Azərbaycanda dünyada olduğu kimi inflyasiya yüksək həddədir. İnflyasiya bütün dünya ölkələrində ciddi problemə çevrilib. Əvvəllər Qərb ölkələrində inflyasiya 1,5 faizdən yüksək olmurdusa, bu gün əksər inkişaf etmiş dünya dövlətlərində ikirəqəmlidir. Azərbaycanda idxal edilmiş inflyasiyadır. Dünya iqtisadiyyatının bir parçası olduğumuz üçün bir çox məhsulları idxal edirik. Çalışırıq ki, idxalı əvəzləyən yerli istehsala üstünlük verilsin. Amma bu sadə proses deyil, zaman tələb edir, rəqabət var. Xaricdə ucuz olan məhsulun Azərbaycanda baha qiymətə istehsalı bir fayda vermir. Bu baxımdan, idxal edilmiş inflyasiyadan canımızı qurtara bilmirik. Buna baxmayaraq, Azərbaycan hökuməti təxirəsalınmaz işlər həyata keçirir. Minimum əmək haqqının 15 faiz artması da inflyasiya fəsadlarının aradan qaldırılması üçün hesablanmış addımlardır. Minimum əmək haqqı 345 manata çatdırılıb. Maksimum dərəcədə çalışmalıyıq ki, ödəmələr artacağı təqdirdə, qiymətlərin artımının qarşısını alaq. Süni qiymət artımı olmasın. İş adamları bunu fürsət bilib daha çox qazanc əldə etmək istəməsinlər. Bununla bağlı aidiyyəti qurumlar, işçi qruplar işləyirlər. Düşünürəm ki, Azərbaycan bu məsələləri aradan qaldırmaq üçün ən optimal variantları həyata keçirir. İqtisadi çətinlik dövrünü tezliklə arxada qoya biləcəyik. Qlobal məkanda baş verən müharibələr, onların yaratdığı qıtlıqlar tezliklə öz həllini tapacaq. Azərbaycan əksər məhsulların istehsalına nail olacaq, qeyri-neft sektoru inkişaf edəcək və nəticədə, bəzi məhsulların qiyməti artmayacaq. Bu da inflyasiyanın yüksəlməsinin qarşısını alacaq.

***Anar Kəlbiyev***

# Yaqub Eyyubovla bağlı iddianın ilginc detalları

## I vitse-premyerin vəzifəsindən kənarlaşdırılması ehtimalının arxasında yalnız yaşı və uzun müddət eyni vəzifəni tutması dayanmırmış



***Qəzetimizin ötən sayında "Bəzi iri məmurların 2023 qorxusu" başlıqlı yazı dərc etmişdik. Yazıda vurğulamışdıq ki, 2022-ci il də ölkədə bir sıra yüksək vəzifəli məmurların işdən azad edilməsi ilə yadda qaldı. İşdən azad edilənlər xüsusilə uzun illər həmin vəzifədə qalması ilə fərqlənirdi. Eyni zamanda onu da bildirmişdik ki, yeni ildə bir sıra yüksək vəzifəli məmurun postu ilə vidalaşa biləcəyinə dair ehtimallar mövcuddur.***

Bu sırada adıçəkilən "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) rəhbəri olan və 27 ildir bu dövlət şirkətinə rəhbərlik edən 73 yaşlı Cahangir Əsgərovun, 2006-cı ildən bu yana, düz 16 ildir maliyyə naziri postunu tutan 62 yaşlı Samir Şərifovun adlarını qeyd eləmişdik. Həmçinin Azərbaycan Respublikası Baş nazirinin 1-ci müavini Yaqub Eyyubovun da yaşı ilə əlaqədar təqaüdə göndərilməsinin sürpriz qarşılanmayacağını vurğulamışdıq.

Yola saldığımız həftə "unikal.org" saytı məlumatlı mənbələrə istinadən Eyyubovun tutduğu postdan uzaqlaşdırıla biləcəyi barədə xəbəri yazdıqlarımızı bir daha təsdiqlədi. Bununla bağlı saytın xəbərində qeyd edilir ki, 77 yaşlı Eyyubov hazırda hökumətin "köhnə eşalon"undan qalan tək-tük yüksəkçinlilərdən biridir, üstəlik, o indiki vəzifəsində artıq 20 ildən çoxdur ki, çalışır. "Mövcud məmur eşelonunda belə vəzifəli şəxslər, demək olar, qalmayıb. Birinci vitse-premyerlə yaşıd olan yüksək post sahiblərinin çoxu artıq bir müddətdir ki, təqaüddədir" deyən mənbələrimiz Eyyubovun Azərbaycana səfər edən xarici dövlət və hökumət başçılarının hava limanında qarşılanmasından qeyri funksionallığının da gözə dəymədiyini vurğulayıblar.

Bundan başqa, onun Rusiyanın hakim siyasi çevrələri ilə isti münasibətləri də cəmiyyətdə müzakirə mövzusudur. O, hətta Rusiya rəhbərliyi tərəfindən "Dostluq" ordeninə layiq görülüb və həmin orden Kremldə şəxsən Vladimir Putin tərəfindən Eyyubova təqdim edilib. Lakin I vitse-premyeri Rusiya ilə bağlayan yalnız siyasi tellər deyil, belə ki, onun adıçəkilən ölkədə geniş biznesinin olduğu da məlumdur.

"Unikal" qəzeti isə yada salır ki, Belarus prezidenti Aleksandr Lukaşenko da Yaqub Eyyubovu mükafatlandırıb. Belə ki, o, "Belarus və Azərbaycan arasında ticarət-iqtisadi münasibətlərin inkişafında və möhkəmləndirilməsində əhəmiyyətli töhfələrinə görə" "Şərəf" ordeni ilə təltif edilib.

Yaqub Eyyubov həmçinin Avropada da biznes şəbəkəsinə malikdir. Hətta Baş nazirin I müavini şəxsi biznesini okeanın o tayınadək genişləndirə bilib. Belə ki, Eyyubovun Kanadada biznesinin mövcudluğuna dair də iddialar mövcuddur.

Bütün bu iddialar indiyədək təsdiqlənməsə də, təkzib də edilməyib. O da məlumdur ki, Eyyubovun ölkə xaricindəki biznesi onun oğulları tərəfindən idarə olunur.

"Unikal qəzeti bu yerdə xatırlatmağı vacib bilir ki, ötən il Baş nazirin birinci müavininin 40 yaşlı oğlu Orxan Eyyubovun Kanada vətəndaşlığı aldığı barədə məlumat yayılıb. Həmin məlumata görə, Orxan bu məlumatı Britaniya hökumətinə açıqlayıb. O, adıçəkilən ölkədə Kanada kapitallı New Canada Capital Ltd. şirkətinin əsas səhmdarı və direktorudur.

14 milyon funt investisiya aktivi olan şirkəti Londonda yaradarkən Orxanın 27 yaşı varmış və həmin vaxt Azərbaycan vətəndaşı imiş. Adıçəkilən şirkət isə daşınmaz əmlak sektorunda işləyir.

I vitse-premyerlə bağlı ən ilginc məqamlardan biri də Azərbaycandakı şirkətlərinin xüsusilə hərbi sahədə özəl pay sahibi olması ilə bağlıdır. Məsələ burasındadır ki, Eyyubovu Silahlı Qüvvələrimizlə bağlı tədbirlərdə də görmək olar. Onun həmin tədbirlərdə iştirakı vəzifə səlahiyyəti ilə birbaşa bağlıdır. Lakin sözügedən səlahiyyət Baş nazirin I müavininə ordunun maddi-texniki və hərbi-texniki təchizatına yönəlmiş layihələrdə öz şirkətlərinin üstünlük qazanması üçün də yaxşı fürsət verib. Nəticədə bu şirkətlərin kifayət qədər böyük rəqəmlərlə ifadə olunan satınalmaları qazandığı deyilir.

Y.Eyyubovun Azərbaycandakı biznesindən söz düşmüşkən, "Unikal" qəzeti bu yerdə bir xatırlatmanı da vacib sayır: Baş nazirin birinci müavini vaxtilə Azərbaycanın ən korrupsioner məmurları arasında göstərilən Etibar Pirverdiyevlə ortaqlığa da malikdir. Belə ki, I vitse-premyer "Azərenerji"nin keçmiş rəhbəri ilə şərikli olaraq Qusarda böyük torpaq sahələri və fındıq bağları almışdı. Bu xəbər yayılarkən söhbətin ümumilikdə 344 hektar sahədən getdiyi də deyilirdi. Bildirilirdi ki, ərazinin 98 hektarı Qusarın Çubuqlu, 246 hektarı isə Həsənqala kəndinin torpaqlarını əhatə edir.

Bütün bunları ümumiləşdirdikdə isə belə qənaət hasil olur ki, yalnız yaşı, eyni vəzifədə 20 ildən çox çalışması deyil, eyni zamanda, hökumətdə yüksək post tutmasına baxmayaraq kifayət qədər oliqarxlaşması Y.Eyyubovun yaxın vaxtlarda vəzifəsindən kənarlaşdırılacağına dair məlumatların reallaşma ehtimalını qüvvətləndirir.

Onu da deyək ki, I vitse-premyerin yeni ildə vəzifəsini itirəcəyi ilə bağlı "unikal.org" saytının xəbəri geniş rezonans doğurub və ölkənin aparıcı KİV-ləri tərəfindən tirajlanıb. Buna baxmayaraq, Yaqub Eyyubov barəsindəki iddialara hər hansı reaksiya verməyib. Əslində, o, indiyədək haqqında yayılan hər xəbəri susqunluqla qarşılayıb. Hətta ailə biznesi barədə iddiaların da üstündən sükutla keçib. Ona görə də Baş nazirin I müavinindən vəzifəsini itirəcəyi yönündə məlumatlara da səssiz yanaşması təəccüb doğurmur.

***Sənan Mirzə***



# Nigar Həzi Tofiq Yaqublu ilə görüşdü

***Müsavat Partiyasının inzibati həbsdə olan üzvü Tofiq Yaqublunun qızı Nigar Həzi xəstəxanada atası ilə görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə o "Facebook"da yazıb.

"İndicə atayla görüşdüm. Dəhşətli dərəcədə arıqlayıb. Sümükləri görünür. Bənizi çox solğun və halsız idi. Oturub-duranda başı gicəllənir. Durumu sabit ağır olaraq qalər. Bildirdi ki, sistem köçürməyə icazə verməyəcəm və aclığı davam etdirəcəm", - deyə N.Həzi qeyd edib.

# Azərbaycanda direktor rüşvət alarkən yaxalandı



***Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində vətəndaşlardan rüşvət alan Ağdam Musiqi Kollecinin direktoru Rafail Musayevin qanunsuz əməlləri ifşa edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Baş Prokurorluq məlumat yayıb. Bildirilib ki, kollec direktorunun 2019-2023-cü illərdə müəllimlərə dərs saatlarının ayrılması, işə qəbul, tələbələrə imtahanlarda qiymətlərin yazılması və digər qanunsuz məqsədlərlə külli miqdarda rüşvət almasına əsaslı şübhələr müəyyən edilib.

Bununla bağlı, Baş İdarədə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanmış, toplanmış ilkin sübutlar əsasında ona həmin Məcəllənin 311.3.2 (təkrar rüşvət alma) və 311.3.3-cü (külli miqdarda rüşvət alma) maddələri ilə ittiham elan edilmiş, barəsində məhkəmənin qərarı ilə vəzifədən kənarlaşdırılmaqla ev dustaqlığı qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

# ABŞ Səfirliyinin mətbuat katibi Mətbuat Şurasında olub

***ABŞ-ın Azərbaycandakı Səfirliyinin mətbuat katibi Elis Spensli və Səfirliyin mətbuat xidmətinin əməkdaşı Mehdi Hüseynquliyev Mətbuat Şurasında olublar.***

Görüş Şuranın Beynəlxalq əlaqələr komissiyasının xətti ilə təşkil edilib. Komissiya tərəfindən sədr Müşfiq Ələsgərli və qurumun üzvü Yeganə Hacıyeva, həmçinin, MŞ-nin icraçı katibi Əvəz Rüstəmov iştirak ediblər.

Görüşdə ABŞ Səfirliyinin Azərbaycanın media məkanı ilə bağlı əlaqələrindəki spesifik məqamlar ətrafında fikir mübadiləsi aparılıb. Bildirilib ki, zaman-zaman həyata keçirilmiş qarşılıqlı əməkdaşlıq jurnalist ictimaiyyətinə müsbət nəticələr verib.

Görüşdə, eyni zamanda, Mətbuat Şurasının Azərbaycan jurnalistlərinin 24 sentyabr 2022-ci il tarixdə keçirilmiş VIII qurultayında seçilmiş yeni İdarə Heyətinin ABŞ Səfirliyi ilə əməkdaşlıq perspektivlərinə toxunulub. Mövcud xüsusda hər iki ölkənin media qurumları arasında təmasların gücləndirilməsinin əsl həqiqətlərin çatdırılmasına töhfə verə biləcəyi vurğulanıb.

# Muxtar Babayev BƏƏ-nin Azərbaycandakı səfiri ilə görüşdü



***Birləşmiş Ərəb Əmirliklərinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Əl Bluşini ilə ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev arasında görüş keçirilib.***

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Mətbuat xidmətindən "Unikal"a bildirilib ki, görüş zamanı Azərbaycan və BƏƏ arasında ətraf mühitin mühafizəsi, gələcək əməkdaşlıq perspektivləri sahəsində fikir mübadiləsi aparılıb, qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib.

# İnam Kərimov Xaçmazda vətəndaşları qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həll olunması üçün tədbirlər görürlər.***



"Unikal" xəbər verir ki, tərtib edilən qəbul cədvəlinə müvafiq olaraq kənd təsərrüfatı naziri İnam Kərimov yanvarın 12-də Xaçmaz Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında Xaçmaz, Şabran və digər rayonlardan olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Qəbuldan öncə nazir İnam Kərimov və Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Elnur Rzayev şəhərin mərkəzində ucaldılan ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər çiçəklər qoyaraq xatirəsini ehtiramla yad ediblər.

Daha sonra nazir İnam Kərimov Xaçmaz Aqrar İnkişaf Mərkəzinin inzibati binasında yaradılan şəraitlə tanış olub, fermerlərə informasiya məsləhət xidmətinin göstərilməsində iştirak edən Aqrar İnkişaf Könüllülərinin bir qrupu ilə görüşüb.

Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda 30 nəfərin müraciətinə baxılıb. Qəbula gələn vətəndaşların müraciəti əsasən fermerlərə subsidiya, güzəştli şərtlərlə kreditlərin verilməsi, kənd təsərrüfatı texnikası və təsərrüfat suyu ilə təminat, ixtisasa uyğun işlə təmin edilmə, torpaqların təyinatının dəyişdirilməsi, sığorta hadisəsi zamanı dəymiş ziyanın ödənilməsi və digər məsələlərlə bağlı olub. Nazir İnam Kərimov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib. Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb. Nazir vətəndaşlarla görüş zamanı dövlət başçısının kənd təsərrüfatının inkişafı ilə bağlı imzaladığı sərəncamların kənd təsərrüfatı istehsalçılarının rifah halının yaxşılaşdırılmasına və ölkəmizdə bu sahənin inkişafına təkan verəcəyini vurğulayıb. Qəbula gələn vətəndaşlar göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Xaçmaz Dövlət Aqrar İnkişaf Mərkəzinin binasında Aqrar Xidmətlər Agentliyinin Səyyar Xidmət Qrupu mexanizatorlar üçün səyyar xidmət təşkil edib. Xidmət zamanı etibarlılıq müddəti bitən traktor və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün mexanizatorların sürücülük vəsiqələri yeniləri ilə əvəz edilib. "Səyyar Xidmət" qrupu öz fəaliyyətini gün ərzində davam etdirəcək. Nazir İnam Kərimov səyyar xidmətin təşkili prosesi ilə maraqlanıb, mexanizatorların müraciətlərini dinləyib, lazımi tövsiyələrini verib.

# Azərbaycandakı özəl klinikalarda misli görünməmiş bahalaşma

## Həkim qəbullarının yeni qiymətləri vətəndaşları şoka salır - İnanılmaz rəqəmlər!



***Azərbaycanda fəaliyyət göstərən bəzi özəl xəstəxanalar son vaxtlar həkimlərin konsultasiya qiymətlərini artırıb.***

Bildirilir ki, ötən il 50-60 manata xəstə qəbul edən həkimlər bu il qiyməti 80-100 manata, 80 manata olanlar isə 120 və daha yuxarı qiymətə qaldırıblar. Məşhur həkimlərin qəbul qiymətləri isə daha yuxarıdır. Bəzi həkimlərin qəbulları 200 manatdır. Bəs bu qiymətlər hansı meyarlar əsasında formalaşır?

Mövzu ilə bağlı "Xəzər-xəbər"ə danışan ürək-damar cərrahı Cabir Gülmalıyev deyir ki, qiymət ixtisasa və həkimin akademik ünvanına görə dəyişir. Yəni burada keyfiyyət xüsusi rol oynayır. O ki, qaldı müayinə və konsultasiya proseduruna, burada dəyişən nəsə yoxdur.

Standart prosedura uyğun olaraq, əlavə instrumental müayinə və analizlər isə bu məbləğə daxil deyil.

Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, həkim qastroentoloq Emin Məmmədov da həkim qəbulunda prosedurun bənzər olduğunu deyir.

Mütəxəssislər onu da bildirirlər ki, özəl klinikalar kommersiya fəaliyyəti göstərən tibb müəssisələri olduğundan və avadanlıqlar, istifadə edilən məhsulların xaricdən gətirilməsi xəstə qəbulu qiymətlərinə də təsir edir. Vətəndaşlar isə həkim qəbullarındakı bu şəkildə bahalaşmanı Azərbaycan normallığında anormal hesab edirlər. Onların fikrincə, qiymətlər sadə insanların cibinə uyğun deyil. Nəzərə alsaq ki, özəl klinikalarda müayinələrin qiymətləri də fantastik rəqəmlərlə müşahidə olunur, belədə bütün bunları ümumiləşdirdəki orta statistik azərbaycanlı üçün əlçatmaz məbləğ yaranır.

Onu da deyək ki, bir müddət öncə sosial şəbəkədə özəl klinikalarda çalışan, qəbulu 100-150 manatı keçən həkimlərin ilkin siyahısı açıqlanmışdı. Həmin siyahıdan məlum olurdu ki, məsələn, fetal ultrasonoqrafiya üzrə Azərbaycanın 1 nömrəli peşəkar mütəxəssisi sayılan Azər Fərəcin qəbulu 112-177 AZN-dir. O, özəl klinikada çalışır, bu məbləğə hamilənin 2 dəfə dopleri daxildir. Məbləğ birinci qəbulda ödənilir.

Və ya Azərbaycan Tibb Universitetinin nevrologiya kafedrasının professoru Zakir Əliyevin qəbulu 150 AZN-dir. O, həm dövlət, həm özəl klinikada çalışır. Uşaq nevroloji xəstəlikləri üzrə bir nömrəli həkim hesab edilir.

Uzman psixiatr İkram Rüstəmovun həkim qəbulu isə 120 AZN-dir. Dermatoloq Leyla Mirzoyeva, mama-ginekoloq Aytən Səfərova və psixoloq Babək Bayramovun həkim qəbulu 100 AZN, ginekoloq-cərrah Turab Canbaxışovun həkim qəbulu 95 AZN, pediatr Erkin Rəhimovla ginekoloq Natiq Məhərrəmovun həkim qəbulu isə 90 AZN-dir.

Bir çox ekspertlər Azərbaycan vətəndaşlarının real maddi durumunu nəzərə aldıqda bu yüksək rəqəmləri səhiyyənin başlıca prinsiplərindən biri ilə ziddiyyət kimi qiymətləndirirlər. Söhbət tibbi xidmətlərin, o cümlədən, həkim qəbullarının hər kəs üçün eyni dərəcədə əlçatanlığından gedir. Məsələn, bir müddət öncə tanınmış ekspert, professor Adil Qeybulla sözügedən mövzuda danışarkən ilginc fikirlər səsləndirmişdi. O, qeyd eləmişdi ki, Azərbaycan tibbində rəqabət mühiti yoxdur: "Əslində, özəl klinikalar arasında da sağlam rəqabət getməlidir. Bir çoxu təklif edir ki, qəbulu baha qiymətə olan tanınmış həkimlər ayda bir dəfə olmaq şərtilə, imkansız ailələr üçün pulsuz qəbul təşkil etsə, yaxşı olar. Xeyr, belə olmamalıdır. Çünki bu, çıxış yolu deyil. İnsanları, problemi olan bir xəstəni ələbaxımlı etmək lazım deyil, insanı köməyə alışdırmaq düzgün olmaz. Hər bir insanın axı hüququ var. Bu hüquqlarından istifadə etməlidir. Gözləməməlidir ki, kimsə pulsuz qəbul keçirsin və o da bundan istifadə etsin. Hər kəs üçün hər bir həkim əlçatan olmalıdır. Vətəndaşın icbari tibbi sığortası olmalıdır ki, o, bu sığorta ilə gedib istədiyi həkimin qəbuluna düşsün".

Göründüyü kimi, özəl səhiyyə sektorunda anormal vəziyyət yaranıb. Klinikaların müayinə və müalicələr üçün müəyyənləşdirdiyi qiymətlər vətəndaşda şok effekti yaradır, necə deyərlər, sağlam adamı da xəstə eləyir. Əlbəttə, mənəvi, ruhi-psixoloji baxımdan...

Üstəlik, o da bir faktdır ki, özəl klinikaların müəyyənləşdirdiyi qiymətlər onların göstərdiyi tibbi xidmətin keyfiyyəti ilə tərsmütənasibdir. Bunu görmək üçün internet üzərindən kiçik bir axtarış aparmaq kifayətdir. Belədə ortaya saysız-hesabsız şikayətlər çıxacaqdır - növbəti dəfə aydın olacaqdır ki, özəl klinikalar bir tərəfdən öz fantastik qiymətləri ilə vətəndaşı, obrazlı desək, "soyub soğana çevirməklə" məşğuldur, digər tərəfdən isə yanlış diaqnozlarla və müalicələrlə vətəndaşın dərdinə dərman olmaq əvəzinə onu yeni dərdlərə ürcah eləməkdədir. Odur ki, aidiyyatı qurumların özəl klinikalar üzərində qanunvericiliyə uyğun şəkildə nəzarəti gücləndirməsi hələ də ən aktual məsələlərdən biridir.

***Sənan Mirzə***

# Hacıbala Abutalıbovun Bakıya miras qoyduğu "mərmər fəlakəti"

## Paytaxtın qarlı günlərində yenə sabiq mer yada düşdü: milyonlarla manatlıq müəmma və...

***Bakıya qarın yağması paytaxtda bir sıra problemləri yenidən gündəmə gətirib. Yağan qar Bakıda bir sıra səkilərdə, piyada keçidlərində hərəkəti çətinləşdirib.***

Piyada keçidlərində yerə vurulmuş mərmər döşəmələr, eləcə də səkilərə döşənmiş mərmər üzlüklər sakinlərin həyatına sözün əsl mənasında təhlükə yaradıb. Paytaxt sakinləri qarın parklarda yaratdığı füsünkar gözəlliyi də kənardan izləməli olublar. Çünki Bakıda bağ və parkların çoxuna mərmər döşəmələr vurulub. Bir az da dəqiqləşdirsək, sabiq mer Hacıbala Abutalıbovun zamanında paytaxtın abadlaşdırılması adı altında bahalı mərmər döşəmələrlə Bakını gözəlləşdirdiklərini zənn edən məmurlar beləcə piyadaların qışda hərəkətini müşkülə çeviriblər.



Yola salmaq üzrə olduğumuz həftə yağan qar zamanı hətta iş o yerə çatdı ki, Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi yolların buz bağlamasını diqqətdə saxlayaraq, hərəkət iştirakçılarına müraciət etdi. Həmin müraciətdə bildirilirdi ki, piyadalar paytaxt ərazisində sürüşkən mərmər səkilərdə hərəkət edərkən diqqətli olsunlar.

Mövzu ilə bağlı danışan millət vəkili Fazil Mustafa isə bildirib ki, mərmər üzlüklərdən istifadə bəzən şəxsi məqsədlərə xidmət edir ”Bir vaxtlar Milli Məclisin qarşısına da mərmər qranit vurmuşdular. Sürüşkən olduğundan söküldü. Parklarda, piyada keçidlərində yerə mərmər döşəmək heç bir məntiqə sığmır. Sözsüz ki, bu mərmərdən istifadə korrupsiya əməlidir. Kiminsə mərməri satılsın deyə, hansısa məmur qazansın deyə həmin qranitlər büdcə hesabına alınaraq yerə döşənib. Yoxsa niyə bilə-bilə ki, bu, sürüşkən materialdır, onu baha qiymətə alıb yerə döşəsinlər? Milli Parkda da bu problem vardı. Bizim ənənəmizdə bir yerin sökülüb dəfələrlə təmir edilməsi var. Burada korrupsiya izi olduğu aydındır. Ona görə də ən azı insanların həyatını bu təhlükədən qurtarmaq üçün o mərmərləri sürüşməyən materialla əvəzləmək lazımdır”.

”Unikal”ın araşdırması isə Bakıda müxtəlif yerlərə vurulan mərmər üzlüklərlə bağlı daha ilginc məqamlar ortaya çıxarıb. Bir daha xatırladaq ki, həmin üzlüklər sabiq mer Hacıbala Abutalıbovun ”mirasıdır”. Məhz buna görə hətta bir neçə il öncə Azərbaycan şou-biznesinin ulduzları həmin vaxt vəzifədə olan Hacıbala müəllimi kəskin tənqid eləmişdilər.

Belə ki, aralarında Sevda Yəhyayeva, Manana, Elnarə Xəlilova, Samir Piriyev, Nadir Qafarzadə, Tünzalə Ağayeva, Çingiz Mustafayev, İlhamə Qasımova və başqa məşhur müğənnilərin olduğu sənətçilərin etirazı Abutalıbovun bütün təşəbbüslərinin ləğa qoyulduğu istehzalı mahnıya çevrilmişdi. Mahnıda o vaxtkı merin Bakıda bütün parkları necə məhv etdiyindən, sonra onları mərmərlə örtdüyündən bəhs olunurdu. Vurğulanır ki, sürüşkən mərmər üzərində yıxılan şəhər sakinləri ”hər dəfə Hacıbalaya salam göndərirlər”.

Ulduzlar həm də Hacıbala Abutalıbovun Bakıda ağacları necə kəsdiyi və onların yerinə elektrik ağacları quraşdırdığı barədə oxumuşdular. Başçı bir də onda ittiham olunur ki, şəhər sakinləri vaxtilə Bakıda olmuş təmiz havanın yerinə indi tozla nəfəs almağa məcbur ediliblər.

Mahnıda şəhərdə eyni küçələrin bir neçə dəfə qazılıb yenidən asfaltlanması, həmçinin merin fəvvarələrə sevgisi və ingilis dilində danışması da ələ salınır, nəhayət, Hacıbala müəllimin bütün dünyanın meri olması arzusu ilə bitirdi.

Bir sözlə, Bakı sakinlərinin xüsusilə qarlı-şaxtalı günlərdə ”başının bəlasına” çevrilən mərmərlərlə bağlı problemin kökü qeyd-şərtsiz olaraq Abutalıbovun paytaxta rəhbərlik etdiyi dövrə gedib çıxır.

Daha bir ilginc məqam: hardasa 10-11 il öncə Bakı Şəhər Baş Polis İdarəsinin keçmiş binası yerləşən ərazidə, konkret olaraq Şamil Əzizbəyov küçəsindəki evlərin və obyektlərin buldozer qabağına verilib şumlanacağı açıqlandı. Sözügedən küçənin yolları xeyli öncədən qazıq-qazıq edilərək bağlandı, nəqliyyatın hərəkəti məhdudlaşdırıldı. Ən dəhşətlisi isə odur ki, yaxın gələcəkdə köçürüləcək ərazidə yollara milyonluq mərmər daşlar düzülməyə başlandı! Hərçənd hökumət rəsmiləri də bəyan edirdilər ki, adıçəkilən ərazi yaxın vaxtlarda köçürüləcək. Belə aydın olurdu ki, Abutalıbov ənənəsinə sadiqdir: o, indi də Ş.Əzizbəyov küçəsində milyonluq maxinasiyalara yol verir. Onsuz da həmin yollar yenidən dağıdılacaqdı, ən azı ona görə ki, həmin küçədən ağır tonnajlı maşınlar keçəcəkdi. Elə isə əraziyə hansı səbəbdən və hansı məntiqlə mərmər döşənirdi? Sualın cavabı aydın idi: BŞİH-in o vaxtkı başçısı büdcədən milyonlar mənimsəmək məqsədilə söküləcək ərazini tikdirir və yenidən dağıtdırmaq istəyir, eyni zamanda da kiminsə (bəlkə də, özünün?!) mərmər biznesini ”çiçəkləndirirdi”...

Hətta ərazidə məskunlaşanlar da həmin vaxt jurnalistlərə buna bənzər fikirlər səsləndirmişdilər. Bildirmişdilər ki, bu daha bir yeyinti üsuludur: “Özünüz də görürsünüz ki, söküntü aparılan əraziyə mərmər daşları düzüblər. Axı bu mərmər daşlara nə ehtiyac var?”

Beləliklə, illər öncə Hacıbala müəllimin büdcədən pul silmək və birilərinin, yuxarıda da vurğuladığımız kimi, hətta ola bilsin özünün və ətrafındakıların nəzarətində, yaxud himayəsindəki ”mərmər biznesi”ni çiçəkləndirmək üçün paytaxt küçələrinə, parklarına, səkilərinə döşədiyi sözügedən üzlüklərin cəzasını vətəndaş olaraq hər birimiz çəkirik. Abutalıbov isə illər uzunu davam edən korrupsiya əməliyyatlarının hüquqi müstəvidə hesabını vermədən kefə baxmaqdadır - həm kefə, həm də paytaxt sakinlərinin mərmər üzərində sürüşüb qol-qıçını necə sındırdığına...

***Toğrul Əliyev***

# "Ermənistan sülh müqaviləsinə mane olur" - Zaxarova




***”Rusiyanın Ermənistan-Azərbaycan sülh müqaviləsi danışıqları üçün platforma təqdim etmək təklifi qüvvədə qalır”.***

”Unikal” xarici KİV-ə istinadən xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova jurnalistlərə açıqlamasında

Onun sözlərinə görə, Ermənistan tərəfinin mövqeyini qiymətləndirmək çətindir.

”Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin sülh müqaviləsi üzrə görüşü 2022-ci il dekabrın 23-də Moskvada keçirilməli idi. Hətta iki ölkənin liderləri buna razılıq vermişdilər. Lakin Ermənistan rəhbərliyi son anda Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın səfərini ləğv etdi. Bu, təkcə sülh müqaviləsinin deyil, həm də Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması ilə bağlı digər aktual məsələlərin, o cümlədən Laçın dəhlizi ətrafında vəziyyətin müzakirəsinə mane oldu”.

# Rəşad Nəbiyev vətəndaşların müraciətlərini dinlədi

***Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin 2023-cü ilin yanvar ayı üzrə şəhər və rayonlarda vətəndaşları qəbulu cədvəlinə əsasən 12 yanvarda Tovuz şəhərində vətəndaşları qəbul edib.***



”Unikal” xəbər verir ki, görüşdən öncə nazir Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

Vətəndaş qəbulunda Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy və Daşkəsən rayon sakinləri iştirak ediblər.

Qəbul zamanı vətəndaşların nəqliyyat, telekommunikasiya, o cümlədən internet, teleradio yayımı və poçt xidmətləri ilə bağlı müraciətlərinə baxılıb.

Nazir Rəşad Nəbiyev müraciətlərin mövcud qanunvericiliyin tələblərinə uyğun və operativ şəkildə araşdırılması ilə əlaqədar nazirliyin müvafiq qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

Vətəndaşların müraciətlərində qaldırılan problemlərin bir qismi dərhal həllini tapıb.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin fəaliyyət sahələrinə aid olmayan məsələlərlə bağlı müraciətlərin isə qeydiyyata alınaraq müvafiq qurumlara göndərilməsi təmin olunacaq.

# Bu instituta yeni direktor təyin olundu

***Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutuna direktor təyin olunub.***



Bununla bağlı müvafiq əmr imzalanıb. Əmrə əsasən, bu vəzifəyə Fərhad Verdiyev təyinat alıb.

Xatırladaq ki, bundan əvvəl həmin tibb müəssisəsinin direktoru Elviz Qasımov olub. O, ötən ilin dekabrında TƏBİB-in İcraçı direktoru Vüqar Qurbanovun əmri ilə Respublika Klinik Xəstəxanasına direktor təyin edilib.

Qeyd edək ki, bu il yanvar ayının 1-dən etibarən Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutu və daha 8 tibb müəssisəsi TƏBİB-in idarəçiliyindən çıxarılaraq Səhiyyə Nazirliyinin tabeliyinə verilib.



# Xocavənddə orta əsrlərə aid müsəlman qəbiristanlığı aşkarlandı

***Xocavənddə orta əsrlərə aid müsəlman qəbiristanlığı aşkarlanıb. "Unikal" xəbər verir ki, bu barədə AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu məlumat yayıb.***

Xocavənd rayonunun Ərəkül kəndi müxtəlif vaxtlarda Hərəkül, Qara Quzey, Arakel adları ilə tanınmışdır. Tarixi məlumatlara əsasən kənddə 1840-ci ildə Cənubi Azərbaycanın Qaradağ mahalındakı Sevakar kəndindən və İrəvan əyalətinin Qafan mahalından köçüb gəlmə erməni ailələri məskunlaşmışdı. 1988-ci ildə Ermənistandan qovulmuş Azərbaycan ailələri kənddə məskunlaşdıqdan sonra əhalinin xahişi ilə yaşayış məntəqəsi Azərbaycan şairi və Səfəvilər dövlətinin görkəmli xadimi Şah İsmayıl Xətainin şərəfinə Xətai adlandırılmışdır.

15 oktyabr 2022-ci ilin AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutuna Xocavənd rayonu Ərəkül (Xətai) kəndi ərazisində insan qalıqlarının aşkar edilməsi ilə bağlı məlumat daxil olmuşdur. Məlumatı ərazidə fəaliyyət göstərən "Caspian Geomatic" MMC-nin əməkdaşları tərəfindən verilmişdir. İnstitut rəhbərliyinin göstərişi ilə Xocavənd-Füzuli arxeoloji ekspedisiyasının əməkdaşı Vüsal Həsənov aidiyyatı qurumların nümayəndələri ilə bərabər əraziyə baxış keçirmişdir. Aşkar edilmiş insan qalıqları Xocavənd rayonunun Ərəkül kəndinin şimalında, təbii təpəliklərin üzərində yerləşir. İnsan qalıqları Ərəkül kəndi ilə qonşu kəndləri əlaqələndirən torpaq yolun kənarlarında aşkar edilmişdir.

Qeyd edək ki, torpaq yolun çəkilişi zamanı təpə üzərində olan məzarlıq ərazisi iki hissəyə bölünmüşdür. Yolun üzərinə düşən qəbirlər zamanında dağıdılmışdır. Qəbirstanlığın üst torpaq səviyyəsi yoldan ortalama 3-4 metr yüksəklikdə yerləşir. Yolun hər iki kənarında, qərb-şərq istiqamətində ən az beş qəbir kamerasını divar kəsiyindən izləmək mümkündür. Su axıntılarından baş verən sürüşmə nəticəsində qəbir kameraları bir hissəsi tam, digərləri qismən dağılmışdır.

Qəbirstanlığın dövrünü və dəfn adət-ayinlərini müəyyən etmək məqsədi ilə divarda izlənən qəbirlərdən biri arxeoloq tərəfindən açılmışdır. Məlum olmuşdur ki, sürüşmə prosesində skeletin kəllə sümüyü itirilsə də, digər sümüklər anatomik şəklini qorumuşdu. Yaşlı insana aid olan qəbirdə dəfn islam qaydalarına uyğun həyata keçirilmişdir. Qəbr mövcud torpaq səviyyəsindən 2.10 m. dərinlikdə yerləşir.

Arxeoloq-antropoloq Vüsal Həsənov tərəfindən skeletlərin ilkin müayinəsi zamanı, məzarlığın Orta əsrlərə (XIII-XV) aid olduğu müəyyən edilmişdir.

Qeyd edək ki, qəbirlərin heç birində yerüstü əlamətlər müşahidə edilmirdi. Kamera indiki torpaq səviyyəsindən 40-50 sm aşağıda yerləşir. Bu da onu deməyə əsas verir ki, uzun zaman ərzində təpəliklərdən gələn axıntılar yeni torpaq qatı formalaşdırmışdır. Qəbirlərdə yerüstü əlamətlərin olmaması səbəbindən, bu məzarlar diqqətdən kənarda qalmışdır.

Xatırladaq ki, Ərəkül kəndində ermənilərə məxsus qəbirsanlıq XIX-XX əsrlərə aiddir. Bu, onların yuxarıda qeyd edildiyi kimi, XIX əsrin 40-cı illərində burada məskunlaşdırılması ilə bağlıdır. Əldə edilmiş dəlillər müsəlman əhalinin bu ərazidə ermənilərdən çox-çox əvvəl yaşadığını sübuta yetirir.

Gələcəkdə abidədə nəzərdə tutulan arxeoloji tədqiqatlar yaşayış məskəninin meydana çıxma tarixi, məzarlığın yaşı və bir sıra sosial-iqtisadi məsələlərə aydınlıq gətirə bilər.



Daşkəsən rayon icra hakimiyyətinin başçısı hörmətli Əhəd Abıyevin 15 yanvar tarixində doğum günüdür. Bu münasibətlə ona uzun ömür, cansağlığı diləyir, işlərində müvəfəqiyyətlər arzulayırıq.

Hörmətlə, "Azərmətbuatyayımı" ASC Daşkəsən rayon şöbəsinin rəisi Yaqub Ələkbərov

# Bəzi məmur şirkətlərinin növbəti özbaşınalığı

## Onlar özlərini hələ də Elman Rüstəmovun zamanında olduğu kimi aparırlar

***Daxili yanma mühərrikinin iş həcmi kiçik olan minik avtomobilləri sahiblərinin icbari sığorta şəhadətnaməsi əldə edə bilməməsi artıq ciddi problemə çevrilib. Demək olar ki, bütün sığorta şirkətləri və sığorta agentləri belə avtomobillərin sahiblərinə sığorta şəhadətnaməsi verməkdən imtina edirlər. Şəhadətnaməni elektron qaydada da əldə etmək mümkün deyil.***



Mövzunu gündəmə gətirən hüquqşünas Ərşad Hüseynov qeyd edib ki, sığortaçılar sürücülərin belə avtomobilləri əsasən taksi kimi istifadə edəcəyini ehtimal edir: "Bu səbəbdən onların sahiblərinin məsuliyyətini sığortalamaqdan qanunsuz şəkildə imtina edirlər. Lakin belə avtomobilin sahibi qadın olduğu halda da imtina etmirlər. Çünki qadınların taksi fəaliyyəti ilə məşğul olması ehtimalı azdır. Hazırda bu kütləvi qanunsuzluğun qarşısı nəinki alınmır, əksinə, onun miqyası artmaqdadır".

Sığortaçıların belə absurd yanaşması isə çox ağır fəsadların ortaya çıxmasına gətirib çıxarır.

Belə ki:

1. Bu yanaşma "İcbari sığortalar haqqında" Qanunun aşkar surətdə pozulmasıdır. Qanunun 23.3-cü maddəsi sığortaçının icbari sığorta üçün müraciət etmiş şəxslə müqavilə bağlamaqdan və ona sığorta şəhadətnaməsi verməkdən imtinasını qadağan edir.

2. Sığortaçıların bu yanaşması yol hərəkəti təhlükəsizliyi sahəsində dövlətimizin siyasətinə zidd və AR Prezidentinin 2018-ci ildə təsdiq etdiyi Yol hərəkəti təhlükəsizliyinə dair Dövlət Proqramının müddəalarını birbaşa pozur. Proqramda həm ekoloji, həm də ümumi yol hərəkəti təhlükəsizliyi mülahizələri nəzərə alınaraq kiçik mühərrikli, az yanacaq sərf edən avtomobillərdən istifadənin təşviqi və stimullaşdırılması təsbit edilir. Sığortaçıların bu yanaşması isə insanları belə avtomobillərdən istifadə etməkdən çəkindirir.

3. Həmçinin bu, ciddi sosial fəsadlar da doğurmaqdadır. Çünki bu tipli avtomobillə taksi fəaliyyəti göstərən insanların sığortası olmadığından avtomobillərini istifadə edə bilmirlər. Nəticədə gündəlik gəlirlərini itirirlər. Üstəlik, əhalinin taksi xidmətindən istifadəsini çətinləşdirir.

4. Bu yanaşma avtomobil sahiblərinin kütləvi qanun pozuntusu törətməsi və cərimələnməsi riskini yaradır. Axı icbari sığortasız avtomobil idarə etməyə görə cərimə (fiziki şəxs üçün 50 manat məbləğində) nəzərdə tutulur və DYP həmin cərimələri tətbiq edir (kameralar vasitəsilə elektron qərarla).

5. Gələn məlumatlara əsasən, sığorta şirkətlərindəki bəzi işbazlar vəziyyətdən istifadə edərək əlavə "haqq" hesabına belə avtomobil sahiblərinin sığorta problemini həll edirlər. Bu isə birbaşa olaraq korrupsiyadır".

Daha bir təəssüfləndirici məqam ondan ibarətdir ki, problemin həlli istiqamətində uzun müddətdir hər hansı addımın şahidi olmuruq. Elə hüquqşünas da bildirib ki, "artıq bir neçə aydır mövcud olan problemi bu məsələlərə nəzarət edən qurum (Mərkəzi Bank ) tərəfindən həll edilmir".

Onu da deyək ki, son vaxtlar sığorta şirkətləri ilə bağlı şikayətlərin, narazılıqların sayı günbəgün artmaqdadır. Həmin narazılıqların motivi müxtəlif olsa da, bir həqiqət eyni olaraq qalır: bir çox sığorta şirkətləri müəyyən məmurlar tərəfindən himayə edildiyi üçün ölkə qanunlarına dırnaqarası yanaşmaqdan çəkinmirlər. Hesab edirlər ki, nüfuzlu himayədarları sayəsində onlara "gözünün üstə qaşın var" deyən olmayacaq.

Yeri gəlmişkən, vurğulamağı lazım bilirik: son vaxtlar Mərkəzi Bank rəsmiləri sığorta şirkətlərinə öz vəzifələrini, müvafiq qanunvericiliyin tələblərini yerinə yetirməyə borclu olduqlarını təzləz xatırlatmağa başlayıblar. Lakin belə görünür ki, müyyən məmurlara bağlılıqları səbəbindən bir çox sığorta şirkətləri hələ də özlərini toxunulmaz sayır, qanunsuz addımlardan çəkinmirlər. Lap Mərkəzi Bankın sabiq rəhbəri Elman Rüstəmovun zamanında olduğu kimi! Odur ki, sığorta şirkətlərini zərərli vərdişlərindən əl çəkdirmək üçün ölkənin baş bankının yeni rəhbərliyi təsirli addımlar atmalı, bu şirkətlərin öz fəaliyyətini yeni dövrün tələblərinə, yeni çağırışlara uyğun qurması üçün güzəştsiz davranmalıdır.

**Toğrul Əliyev**

# Qazinin ölüm səbəbi məlum oldu

***Vətən Müharibəsi qazisi Zamir Osmanov yanvarın 5-də Sabunçu Tibb Mərkəzindən Kliniki Tibbi Mərkəzə decubitus xorası ağırlaşması səbəbilə köçürülüb.***



Bu barədə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İctimaiyyətlə əlaqələr və marketinq departamentinin rəhbəri Zamirə Ədilova bildirib.

Onun sözlərinə görə, yanvarın 6-da qazinin vəziyyəti ağırlaşıb və sepsis diaqnozu ilə süni tənəffüs aparatına qoşulub. Bir gün sonra - yanvarın 7-də "YAŞAT" Fondunun dəstəyi ilə özəl tibb müəssisəsinə təxliyə olunub.

Zamir Osmanov Fondun dəstəyi ilə Türkiyədə də müalicə alıb.

"Yanvarın 8-də pasiyentdən götürülən analizin nəticəsində COVID-19 aşkarlandığı üçün ağır vəziyyətdə Məhəmmədi Modul Tipli Xəstəxanasına hospitalizasiya olunub. Həkimlərin səyinə baxmayaraq, o, 11 yanvar 2023-cü il tarixində vəfat edib", - deyə məlumatda bildirilib.

**5.3.5. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük “Vətən Müharibəsi”ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# İşğalçı dövlətin vandal əməlləri dünyaya çatdırılmalıdır

## Kamilə Əliyeva: “Ermənilər işğal dövründə bütün şəhər və kəndlərimizi viran qoyublar, bununla bərabər minaları toxum kimi basdırıblar”



***Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi düşmənin əsl simasını dünyaya göstərməyə böyük fürsət yaratdı. İşğal dövründə daşı-daş üstündə qoymayan Ermənistanın yurd yerlərimizi, mədəni-tarixi abidələrimizi məhv etməsi nəinki Azərbaycan, bəşəriyyət üçün ən qatı cinayət hesab oluna bilər.***

Azərbaycan xalqının izini 30 ilə yaxın işğalda saxladıqları torpaqlardan silmək missiyası qoyan düşmən məzarlıqlara belə qənim kəsilib. Azərbaycanın haqq savaşında zəfər qazanması düşmənin bu mənfur siyasətini gec də olsa dayandırdı. İndi Azərbaycan dövləti 28 il işğal altında saxlanılan torpaqlara yenidən həyat vermək, didərgin düşmüş köçkünlərin öz ata ocağına qayıtması üçün var gücü ilə çalışır. Amma prezident İlham Əliyevin də dediyi kimi, işğaldan azad edilmiş torpaqlarda kəndlər, şəhərlər yenidən qurulsa da, düşmənin həmin torpaqlardakı vandal əməlləri gələcək nəsilin bu müsibətləri unutmaması üçün çatdırılmalıdır. Bunun isə ən düzgün yolu xarabalığa çevrilmiş kənd və şəhərlərdə müharibənin izinin tarix kimi saxlanılmasıdır. Biz bu yolla nəinki indi, yüz il sonra da həm gələcək nəsillərə, həm də dünyaya düşmənin vandal əməlləri barədə məlumat ötürə, bədnam qonşumuzun əsl simasını göstərə bilərik.

Milli Məclisin deputatı, professor Kamilə Əliyeva bildirib ki, Ermənilər işğal dövründə bütün şəhər və kəndlərimizi viran qoyublar. Bununla bərabər ermənilər bu ərazidə minaları toxum kimi basdırıblar: “İşğaldan azad edilmiş torpaqlarımızın sahəsi 10 min kvadrat kilometrdən çoxdur. Bu bəzi ölkələrin ərazisindən böyükdür. Bütün bunlara baxmayaraq minalardan təmizlənmiş ərazilərdə böyük quruculuq və abadlıq işlərinə start verildi. Ərazilərin bərpası və yenidən qurulması üçün 2021-ci ilin dövlət büdcəsindən ilkin olaraq 2,2 milyard manat vəsait ayrılmış, sonrakı illərdə bu vəsait daha da artırılıbdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə ”Azərbaycan 2030: sosial - iqtisadi inkişafa dair Milli Prioritetlər” təsdiq edilibdir. Bu prioritetlərə əsaslanan Azərbaycan Respublikasının Prezidentinin 2022-ci il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş ”Azərbaycan Respublikasının 2022-2026 cı illərdə sosial-iqtisadi inkişaf strategiyası”nda əks olunmuş ”İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış” Milli Prioritetlərin icrasının təmin edilməsi məqsədilə Prezident cənab İlham Əliyevin 16.11.2022-ci il tarixli Sərəncamı ilə ”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı” təsdiq edilibdir. Məcburi köçkünlərin öz doğma yurdlarına dönmələri üçün ilk növbədə ərazilərdə infrastruktur, sosial-məişət obyektləri, evlərin, binaların inşa edilməsi, əhalinin məşğulluq məsələlərini həll etmək üçün yeni istehsal müəssisələri yaradılacaq”.

Deputat deyib ki, bütün bu işlər mərhələli şəkildə həyata keçirilir. Artıq ərazinin böyük hissəsi elektrik enerjisi ilə təmin edilib. Həmçinin bütün şəhər, qəsəbə və kəndləri birləşdirən müasir yollar çəkilir: “Şəhərlərin təsdiq edilmiş Baş planına uyğun olaraq məktəblər, xəstəxanalar, yaşayış evlərinin inşasına başlanılıb. Bu işlərin icrasına Prezident cənab İlham Əliyev şəxsən özü rəhbərlik və nəzarət edir. İnşa edilmiş bütün infrastruktur və sosial-məişət obyektlərinin, yaşayış binalarının təməl qoyma və açılış mərasimlərində ölkə başçımız özü iştirak edir. İşğaldan azad edilmiş ərazilərimizin potensialı və çoğrafi şəraiti nəzərə alınmışdır. Kəlbəcər rayonu hasilat və turizm sənayesi, Ağdam rayonu emal sənayesi, Şuşa mədəniyyət və turizm sahəsi, Cəbrayıl rayonu ticarət- logistika xidməti, Qubadlı, Zəngilan, Laçın, Füzuli, Xocavənd rayonları isə kənd təsərrüfatı və turizm sahəsi üzrə istehsal imkanları üçün qiymətləndirilibdir. Cəmi 8 aya Füzuli Beynəlxalq Hava Limanı, bir il sonra Zəngilan Beynəlxalq Hava Limanının istifadəyə verilməsi Azərbaycan dövlətinin iqtisadi cəhətdən qüdrətli bir dövlət olduğunun sübutudur. Bütün quruculuq işlərini Azərbaycan dövləti heç bir maliyyə yardımı almadan, kredit götürmədən təkbaşına özü həyata keçirir. Qarabağ və Şərqi Zəngəzura Böyük Qayıdış prosesi artıq reallaşıb. İlk olaraq Ağalı kəndinin sakinləri öz yurd yerlərinə dönüblər. Dövlət Proqramının icra olunduğu dövr ərzində hər il aralıq nəticələr illik əsasda olmaqla 2023, 2024, 2025-ci illər, yekun nəticələr isə 2026-cı ili əhatə edəcək. Bütün məcburi köçkünlər mərhələli şəkildə şəhər və kəndlərimiz abadlaşdıqca öz evlərinə dönəcəklər. Bütün bu işləri yerinə yetirmək üçün Azərbaycan dövlətinin iqtisadi gücü, siyasi iradəsi var. Ən əsası Azərbaycan xalqının öz xalqını sevən cənab İlham Əliyev kimi güclü, qətiyyətli Lideri - dövlət başçısı var” deyə deputat əlavə edib.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## Qarabağ və Şərqi Zəngəzurda tikilən məktəblərlə bağlı son vəziyyət

***İşğaldan azad edilən ərazilərdə inşa edilən və tikintisi planlaşdırılan məktəblərlə bağlı son vəziyyət açıqlanıb.***

“Unikal” xəbər verir ki, bu barədə Elm və Təhsil Nazirliyinin təsərrüfat hesablı əsaslı tikinti və təchizat idarəsinin rəis müavini Fərhan Əliyev məlumat verib.

Ötən il Tərtər rayonunun Suqovuşan qəsəbə məktəbinin əsaslı təmir edildiyini xatırladan rəis müavini bildirib ki, həmin təhsil müəssisəsi istismara verilməsə də, açılışa hazırdır.

F.Əliyev hazırda Şuşada 960 yerlik 1 nömrəli və Ağdam şəhərində 960 yerlik 1 nömrəli məktəblərin tikildiyini söyləyib. Bildirib ki, hər iki təhsil müəssisəsinin bu ilin sentyabrında təhvil verilməsi nəzərdə tutulur.

Rəis müavini deyib ki, bundan əlavə, Özbəkistan hökuməti tərəfindən Füzulidə 960 yerlik məktəb tikilir. Bir də Cəbrayılda yerli sponsorun təşəbbüsü ilə 960 yerlik məktəb inşa olunur. O, Füzulidə tikilən məktəbin də bu ilin sentyabrında təhvil verilməsinin nəzərdə tutulduğunu qeyd edib.

Nazirlik rəsmisi həmçinin əlavə edib ki, Füzuli Peşə məktəbinin, Kəlbəcərdə 960 yerlik məktəbin, Zəngilanda 960 yerlik məktəbin, Şuşa Realnı məktəbinin layihələndirmə işləri aparılır: ”Bir də Laçında 2 nömrəli və Zabux-Laçın məktəbinin əsaslı təmirinə başlanılıb. Onların da bu ilin sentyabrında təhvil verilməsi nəzərdə tutulur”.

## Qarabağda 120 min erməninin yaşaması ilə bağlı yalanı ifşa olundu

***Ermənistanın hakim “Vətəndaş müqaviləsi” partiyasının deputatı Vigen Xaçatryan Qarabağda cəmi 40 min erməninin yaşadığını bildirib.***



Xaçatryan bu açıqlaması ilə ermənişəsilli rusiyalı biznesmen Ruben Vardanyanın Qarabağda guya 120 min erməninin olması ilə bağlı yalanını ifşa edib.

Xaçatryan, həmçinin öz açıqlamasında Bakı ilə separatçılar arasında dialoqun zəruriliyini qeyd edib:

“Gərginlik Rusiya və Azərbaycanın maraqlarından irəli gəlir. Xankəndi və Bakı arasında birbaşa dialoqa keçmək lazımdır. Qarabağın 40 min qəzəbli sakini Ermənistana gələrək hakimiyyətin dəyişməsini tələb edərsə, bu, Rusiyanın xeyrinə olar. Qarabağ Azərbaycanla birbaşa dialoq aparmalıdır”.

Qeyd edək ki, Vardanyan öz açıqlamalarında Qarabağda 120 min erməninin yaşadığını iddia edirdi.

# Pensiyalar artımla birlikdə veriləcək - RƏSMİ



***"Hər ay pensiyaların qrafikdən bir neçə gün əvvəl ödənişi həyata keçirilir və bu ay üzrə də pensiyaların ödənişinin qrafik üzrə aparılmasında hansısa gecikmə özünü göstərmir".***

Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun İctimaiyyətlə əlaqələr departamentinin müdiri Rəşad Mehdili deyib.

Onun sözlərinə görə, bu ay üzrə yenilik və pensiyaçılara dəstək olaraq bütün pensiyaçılara ötən il üzrə verilən maddi yardımın hər aya düşən məbləğinin 2023-cü ilin əvvəlindən onların pensiyaları tərkibinə daxil edilməsi ilə əlaqədər elektron sistemlərdə texniki işlər icra olunmaqdadır.

"Artıq bu işlər yekunlaşmaqdadır və qısa müddətdə başa çatdırılaraq, pensiyaların ötən il üzrə verilən maddi yardımın hər aya düşən məbləği də əlavə olunmaqla, yəni yeni artımla ödənişinə başlanacaq",- Rəşad Mehdili vurğulayıb.

Qeyd edək ki, qurum rəsmisi bundan öncə saytımıza açıqlamasında pensiyaların yanvar ayının 11-də ödəniləcəyini demişdi.

# Şagirdlərin yerdəyişməsi dayandırılır

***Yanvarın 13-ü saat 17:00-dan etibarən 2022-2023-cü tədris ilinin I yarımili üzrə şagirdlərin yerdəyişməsi prosesi müvəqqəti dayandırılacaq.***

Bu barədə "Unikal"a Elm və Təhsil Nazirliyindən məlumat verilib.

Bildirilib ki, elektron yerdəyişmə prosesinin yenidən başlanacağı tarix barədə ictimaiyyətə əlavə məlumat veriləcək.

Qeyd edək ki, şagird yerdəyişməsinin elektronlaşdırılması bu prosesdə məktəb və valideyn arasında olan məsafənin azaldılmasına və valideynin təhsil müəssisəsi ilə təmasının daha şəffaf şəkildə təşkilinə xidmət edir. Şagirdlərin yerdəyişməsi prosesi www.sy.edu.az portalı vasitəsilə həyata keçirilir.

# Mingəçevirdə qanunsuz tikilinin qarşısı alındı

***Mingəçevirdə qanunsuz tikilinin qarşısı alınıb.***



"Unikal" xəbər verir ki, bu barədə Fövqəladə Hallar Nazirliyi (FHN) məlumat yayıb.

Belə ki, FHN-in Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi və Dövlət Yanğın Nəzarəti Xidməti Mingəçevir şəhəri, Gəncə şosesi, 4-cü döngə ünvanında müvafiq icazəverici sənədlər olmadan, o cümlədən yanğın təhlükəsizliyinə dair normativ sənədlərin tələbləri pozulmaqla qeyri-yaşayış obyektinin tikintisinin aparılması faktını aşkar edib.

Həyata keçirilən müvafiq tədbirlər nəticəsində qanunsuz tikinti işlərinin qarşısı alınıb və obyekt nəzarətə götürülüb.

# Gürcüstandan Azərbaycana qanunsuz keçmək istədilər

***Yanvar ayının 11-də saat 22:55-də Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının "Şəmkir" sərhəd dəstəsinin Ağstafa rayonunun Sadıxlı kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti ərazisində Gürcüstandan Azərbaycan istiqamətində dövlət sərhədini pozmağa cəhd göstərən 2 (iki) nəfər Azərbaycan vətəndaşları saxlanılıb.***

Bu barədə "Unikal"a DSX-nin Mətbuat Mərkəzindən məlumat verilib.

Araşdırma zamanı saxlanılan şəxslərin 1995-ci il təvəllüdlü Ağstafa rayon sakini Abdullayev Məqsəd Vidadi oğlu və Yevlax rayon sakini Dərviş İsmayıl Qnyaz oğlu olmaları müəyyən edilib. Fakt üzrə araşdırma tədbirləri davam etdirilir.

# Dövlət qulluğuna qəbul imtahanı keçiriləcək

***Dövlət İmtahan Mərkəzi tərəfindən 12 fevralda dövlət qulluğu vəzifələrinin B növünə aid olan BA və BB altqruplarına uyğun olan vəzifələr üzrə test imtahanı keçiriləcək.***



DİM-dən "Unikal"a verilən xəbərə görə, imtahanda iştirak etmək üçün qeydiyyat 12 yanvar saat 11:00-dan 1 fevral saat 11:00-dək aparılacaq. İmtahan Bakı şəhərində keçiriləcək və namizədlər üçün 2000 yer ayrılıb.

İmtahan yeri (binası) barədə məlumat imtahandan 5 gün əvvəl Mərkəzin saytına yerləşdiriləcək "İmtahana buraxılış vərəqəsi"ndə qeyd olunacaq.

İmtahanda iştirak etmək istəyən namizədlər DİM-in portalında "Şəxsi kabinet"lərini (şəxsi kabineti olmayanlar) yaratmalıdırlar. Kabinet yaradılan zaman pul hesabı açılır. İmtahanlarda iştirak üçün ödəniş tarifləri ilə buradan tanış olmaq mümkündür. "Şəxsi kabinet"də olan pul hesabına vəsait daxil etmək üçün müxtəlif ödəniş üsullarından (ətraflı məlumat www.payment.dim.gov.az saytında verilmişdir) istifadə etmək olar. "Şəxsi kabinet" yaradıldıqdan və hesaba lazımi vəsait daxil edildikdən sonra imtahanlarda iştirak etmək üçün DİM-in internet portalında "Dövlət qulluğuna qəbul üzrə test imtahanında iştirak etmək üçün onlayn qeydiyyat" xidməti vasitəsilə qeydiyyatdan keçmək lazımdır. Qeydiyyatdan keçən və imtahanda iştirak etməyən namizədlərin ödədiyi məbləğ geri qaytarılmır.

Qeydiyyat zamanı ali təhsil haqqında məlumatlar "Tələbə-məzun" dövlət elektron məlumat sistemi vasitəsilə yoxlanılır və namizəd haqqında məlumatlar sistemdə olmadıqda onun qeydiyyatı aparılmır. Bu halda Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə qəbul olunmuş namizəd ona aid məlumatların "Tələbə-məzun" dövlət elektron məlumat sisteminə daxil edilməsi üçün bitirdiyi təhsil müəssisəsinə müraciət etməlidir. Xaricdə təhsil almış namizədlər və sistemdə ali təhsil haqqında məlumatı olmayan digər namizədlər DİM-ə (Bakı şəhəri, Nəsimi rayonu, Akademik Həsən Əliyev küçəsi, 299 və ya DİM-in regional bölmələrinə) müraciət etməlidir. Məlumatları "Tələbə-məzun" dövlət elektron məlumat sisteminə daxil edilmiş namizədlər qeydiyyatdan keçə bilərlər.

Qeydiyyatdan əvvəl namizədlər təhsil haqqında məlumatlarının "Tələbə-məzun" dövlət elektron məlumat sistemində olub - olmadığını "Elektron hökumət" portalından DİM-in "Vətəndaş haqqında "Tələbə-məzun" dövlət elektron məlumat sistemindən çıxarış" elektron xidməti vasitəsilə öyrənə bilərlər.

Namizədlərin qeydiyyatdan keçməmişdən əvvəl vəzifə qrupunu düzgün seçmələri, imtahana daha səmərəli hazırlaşmaları və imtahanda davranış qaydaları ilə tanış olmaları üçün aşağıdakılardan istifadə etmələri tövsiyə olunur:

Test imtahanında yoxlanılacaq bilik sahələri və hər sahə üzrə test tapşırıqlarının sayı və vəzifə altqrupları üzrə keçid balları;

Test imtahanı proqramları;

"Namizədin yaddaş kitabçası" - kağız daşıyıcılar vasitəsilə keçirilən test imtahanları üçün;

Namizəd şəxsiyyətini təsdiq edən sənədi və imtahana buraxılış vərəqəsini təqdim etməklə test imtahanında iştirak edir.

Test imtahanından müvəffəqiyyətlə keçən namizədə altqruplara daxil olan vəzifələrə uyğun olaraq sertifikat verilir. Sertifikatın qüvvədə olma müddəti 5 ildir. Namizəd dövlət qulluğu vəzifələri üzrə bir neçə sertifikat ala bilər.

İnzibati vəzifələrin müvafiq altqrupu üzrə Sertifikata malik olan şəxs Sertifikatda nəzərdə tutulmuş vəzifə, habelə həmin altqrupun aid olduğu qrup daxilində daha aşağı altqruplara uyğun olan vəzifə üzrə keçirilən müsahibələrdə iştirak edə bilər. Elan edilmiş müsahibədə iştirak üçün müraciət edən namizəd qanunvericiliklə müəyyən edilmiş vakant vəzifələrin tutulmasının ümumi şərtlərinin tələblərinə cavab verməlidir. Ümumi şərtlərin tələblərinə cavab verməyən namizəd müsahibədə iştirak edə bilməz.

# Nazirlik: Çaylarda sululuq artıb

***Son 5 gündə ölkə ərazisində yağan qar əksər bölgələrdə kifayət qədər yüksək qar örtüyünün əmələ gəlməsinə səbəb olub.***



Milli Hidrometeorologiya Xidmətinin Hidrologiya Mərkəzinin direktoru Asif Verdiyev "Unikal"a bildirib ki, Böyük Qafqazın Balakən-Şəki bölgəsində düşən yağıntı ötən ildəkindən və ongünlük normadan 50 faiz çox olub, qar örtüyünün hündürlüyü 22 smdək təşkil edib. Oğuz-Qəbələ bölgəsində isə yağıntının ongünlük normadan 30 faiz çox olması nəticəsində qar örtüyünün hündürlüyü 19 smdək olub.

"Quba-Xaçmaz və Lənkəran-Astara bölgəsində isə qarın daha çox yağması nəticəsində qar örtüyünün orta hündürlüyü Quba-Xaçmaz bölgəsində 32, Lənkəran-Astara bölgəsində isə 35 sm-dək olub".

A.Verdiyev onu da qeyd edib ki, müşahidə edilən hava şəraiti çayların sululuğuna da müsbət təsir göstərib. Düşən yağıntılarla bağlı bəzi çaylarda və Kürün aşağı axınında suyun səviyyəsində artım müşahidə olunub.

"Lənkəran-Astara bölgəsindən axan Viləşçay-Şıxlar, Lənkərançay-Sifidor, Kiçik Qafqazın ərazisindən axan Zəyəmçay-Ağbaşlar məntəqələrində suyun səviyyəsində 1, Kür-Surra məntəqəsində 13, Kür-Şirvanda 4, Kür-Salyanda 19, Kür-Bankədə 6 sm artım qeydə alınıb".

Xidmət rəsmisinin sözlərinə görə, yaxın günlərdə temperatur rejiminin tədricən yüksəlməsi və dağlıq ərazilərə yağan qarın tədricən əriməsi nəticəsində çaylarda xüsusən də Lənkəran-Astara bölgəsindən axan çaylarda sululuğun artımı gözlənilir.

# “Qərbi Azərbaycan” mövzusu artıq beynəlxalq arenaya çıxarılır



***Cənab Prezident İlham Əliyevin yerli televiziya kanallarına növbəti müsahibəsi, verdiyi bəyanatlar, səsləndirdiyi fikirlər 2023-cü ildə ölkəmizin həm regional, həm beynəlxalq müstəvidə irəliləyəcəyi, eyni zamanda dövlətimiz və xalqımız üçün yaxın gələcəyə yönəlik çox vacib olan yol xəritəsini müəyyən etmək baxımından ciddi siyasi hadisə hesab edilməlidir. Dövlətimizin başçısı müsahibəsində mühüm tarixi və siyasi məqamları diqqətə çatdırmaqla yanaşı, yeni şəraitdə həm regional, həm də beynəlxalq təhlükəsizlik və əməkdaşlıqla əlaqədar Azərbaycanın mövqeyini aydın ifadə etdi.***

Azərbaycan Prezidenti, həmçinin vacib mesajlar verməklə yanaşı, Ermənistana və onun havadarlarına ciddi xəbərdarlıq etmiş oldu. Xüsusilə, Qərbi Azərbaycan məsələsinə davamlı diqqət ayıran cənab İlham Əliyev bu müsahibəsində də həmin mövzuya dair mühüm fikirlər səsləndirdi: “...Prinsipcə mən hesab edirəm ki, yavaş-yavaş bu mövzu ilə bağlı biz gərək öz fikirlərimizi bölüşək... Bu gün sirr deyil ki, Qərbi Azərbaycan İcması uzun illər deportasiyaya məruz qalmış İcma kimi öz hüquqlarından məhrum idi. Əlbəttə ki, Qarabağ dərdi, problemi olan yerdə Qərbi azərbaycanlıların hüquqlarından danışmaq bəlkə də vaxtından əvvəl açılan bir atəşə bənzəyə bilərdi. Amma bu gün hesab edirəm ki, biz tam haqlı olaraq bu mövzunu artıq beynəlxalq arenaya çıxarmışıq... Əlbəttə ki, Qərbi azərbaycanlılar öz dədə-baba torpaqlarına qayıtmalıdırlar, bu, onların hüququdur, bütün beynəlxalq konvensiyalar bu hüququ onlar üçün tanıyır. Biz də Azərbaycan dövləti olaraq əlimizdən gələni etməliyik ki, bu hüququ təmin edək”.

Heç kimə sirr deyil ki, XIX əsrdə çar Rusiyası tərəfindən Osmanlı və İran ərazisindən ermənilərin kütləvi şəkildə Cənubi Qafqaza köçürülməsi ilə azərbaycanlıların öz tarixi torpaqlarında sıxışdırılması prosesinə başlanılıb. XX əsrin əvvəllərində azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə, soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərlə, faciələrlə üzləşib. Mərhələ-mərhələ gerçəkləşdirilən bu plan nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi torpaqlarından qovularaq kütləvi qətl və qırğınlara məruz qalıb, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənləri məhv edilib. 1988-ci ildə Qərbi Azərbaycandan 300 mindən çox adam deportasiya olunub. Bununla bərabər, XX əsr ərzində Ermənistanın Qərbi Azərbaycan və bu bölgədən olan soydaşlarımıza təzyiqləri davam edib. Qərbi azərbaycanlıların deportasiyası rəsmi olaraq 4 dəfə həyata keçirilib və təəssüf ki, bu ağlasığmaz şovinist özbaşınalığına münasibətdə beynəlxalq ictimaiyyət hələ də susur. Bu gün tam haqlı olaraq “Qərbi Azərbaycan” mövzusu artıq beynəlxalq arenaya çıxarılıb. Xüsusi işçi qrupu yaradılıb və vahid konsepsiya üzərində işlər başlanıb. Əminik ki, dövlətimiz heç bir güc tətbiq etmədən soydaşlarımızın Qərbi Azərbaycana qayıdışını reallaşdıracaq, tarixi ədalət bərpa olunacaq. Bu baxımdan, xalq olaraq öz Liderimizə güvənməli, Qərbi Azərbaycan məsələsində fəal və prinsipial olmağı bacarmalıyıq.

**Milli Məclisin Səhiyyə komitəsinin sədri, “Qərbi Azərbaycan İcması” Ağsaqqallar Şurasının sədri, akademik Əhliman Əmiraslanov**

# AQTA-nın Qarabağ və Şərqi Zəngəzur regional bölmələri yaradıldı

***Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) Qarabağ və Şərqi Zəngəzur regional bölmələri yaradılıb.***

Bu barədə ”Unikal”a AQTA-dan məlumat verilib.

Qeyd olunub ki, Agentlikdə struktur dəyişiklikləri edilib və mövcud olan 11 regional bölməsi iqtisadi rayonların yeni bölgüsünə uyğun formalaşdırılıb. Bununla əlaqədar, işğaldan azad edilmiş əraziləri də əhatə edəcək Qarabağ və Şərqi Zəngəzur, həmçinin Mil-Muğan regional bölmələri yaradılıb.

Qarabağ və Şərqi Zəngəzur regional bölmələrinin yaradılmasında əsas məqsəd işğaldan azad edilmiş ərazilərdə qida təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarət tədbirlərinin görülməsi, o cümlədən həmin ərazilərə köçürüləcək əhalinin təhlükəsiz qida ilə təminatına şərait yaratmaqdan ibarətdir. Dəyişikliklərə əsasən, Bərdə rayonunda yerləşən Qarabağ regional bölməsi Xankəndi şəhərini, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonlarını, Zəngilan rayonunda yerləşməsi nəzərdə tutulan Şərqi Zəngəzur regional bölməsi isə Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonlarını əhatə edir.

“Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı”nın icrası ilə bağlı hazırda Agentlik tərəfindən ölkəyə idxal-ixrac olunan mallara nəzarəti həyata keçirmək üçün sərhəd keçid məntəqələrinə yaxın ərazilərdə “Qida təhlükəsizliyi nəzarəti məntəqələri” qurulmaqdadır. Gələcəkdə burada beynəlxalq standartlara uyğun qida təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarəti zonalarının yaradılması planlaşdırılır.

# Temperatur 6 dərəcə yüksələcək

***Azərbaycanda müşahidə olunan faktiki və gözlənilən hava açıqlanıb.***

”Unikal” xəbər verir ki, bu barədə Hidrometeoroloji Proqnozlar Bürosunun direktoru Gülşad Məmmədova məlumat verib.

Onun sözlərinə görə, Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, yanvarın 12-si səhərədək ölkə ərazisində yağıntılı və qarlı hava şəraiti davam edib, bəzi rayonlarda intensiv olub.



Direktor bildirib ki, qar örtüyünün hündürlüyü hazırda Lerikdə 35, Altıağacda 32, Xaçmazda 24, Quba, Şamaxı, Xaltanda 19, Göytəpədə 17, Qusarda 16, Qax, Yardımlıda 15, Şabran, Qobustanda 14, Biləsuvar, İsmayıllıda 10, Lənkəranda 9, Göyçayda 8, Salyan, Daşkəsəndə 7, Zərdabda 6, Göygöldə 5, Oğuz, Cəfərxan, Gədəbəydə 4, Ağdərədə 3, Ağdamda 2, Ağsu, Qrız, Zaqatala, Astara, Bərdədə 1, Binədə 9, Bakıda 7 sm olub.

G.Məmmədova deyib ki, cənub-şərq küləyinin sürəti Şabranda 20 m/s-dək güclənib. Dumanlı hava şəraiti isə Daşkəsən, Göygöl, Şəmkir, Balakən, Qəbələ, Qax, Şəki, Şamaxı, Qrız, Lerikdə müşahidə olunub, görünüş məsafəsi 50-100 metrədək məhdudlaşıb:

”Havanın minimal temperaturu Bakıda iqlim normasından 5.3 dərəcə aşağı olub, Bakıda və Abşeron yarımadasında 1 dərəcəyədək şaxta, Naxçıvan MR-da və dağlıq rayonlarda 8-13 dərəcə şaxta, Aran rayonlarında isə 2 dərəcəyədək şaxta olub. Yanvarın 12-si günün ikinci yarısından ölkənin qərb rayonlarından başlayaraq yağıntıların tədricən kəsiləcəyi gözlənilir. Havanın temperaturu həftənin sonunadək tədricən 4-6 dərəcə yüksələcək”.

# Vətənin qəhrəman oğlu Samir

***Samir Məhərrəm oğlu Quliyev İkinci Qarabağ müharibəsində canı-qanı bahasına yağı düşmənə layiqli dərs verməklə müqəddəs şəhidlik zirvəsinə ucalıb. Məhz buna görə də Lənkəranın Velədi kəndində doğulub boya-başa çatan bu Vətən sevdalısı bütöv Azərbaycanın qəhrəmanlıq simvoluna çevrilib. Samirin ömür yolu cəmi 18 il olub. Bu az yaşda onun xalqı, milləti üçün gördükləri isə ona əbədiyaşarlıq qazandırıb. Özündən sonra yadigar qoyduğu Vətən sevgisi dövlət tərəfindən də yüksək tutulub. Belə ki, elin qəhrəman oğlu “Cəsur döyüşçü”, “Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə” medallara layiq görülüb.***



Vətənə sevgi, düşmənə nifrət ruhunda formalaşan, bütün varlığı ilə doğma Azərbaycana bağlı olan Samir Quliyev Ordu sıralarına yola düşəndə ürəyində bir istək olub: müqəddəs torpaqları göz-bəbəyi kimi qorumaq və mübarizliklə yağı düşmənə qalib gəlmək. Bəli, cəbhə bölgəsində xidmət edən Samir Vətən torpağının hər qarışını əziz bilməklə öz əsgəri borcunu şərəflə yerinə yetirir. Həm də məqsədə çatmaqdan ötrü təlimlərdə böyük həvəslə iştirak edir, xüsusi peşəkarlıq göstərərək yüksək nəticələr qazanır. Hərbi hissədə hər an torpaq uğrunda can qoymağa hazır olan bir oğul kimi tanınır. Onun igidliyi, mərdliyi digər əsgər yoldaşlarına da nümunə olur.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlanır. Əsgər Samir bu günü intizarla gözləyirdi. Odur ki, düşməndən qisas almaq üçün silaha sarılıb müharibə meydanına birincilər sırasında atılır. Elə Vətən sevgisi onu ilk gündən erməni dığalarının kabusuna çevirir. Füzuli uğrunda gedən döyüşdə yüzlərlə erməni dığasının, tanklarının axırına çıxır. Düşmən tapdağında inildəyən Vətən torpaqları azad olunduqca Samirin qollarına yeni güc gəlir. İgid əsgər hər savaşda sanki bir tarix yazır. Döyüşlərin birində Vətənə tuşlanan düşmən gülləsinə sinəsini sipər etməklə zəfərimizə uğurlu yollar açılır...

İndi bütün Lənkəran camaatı Samirin adını böyük fəxrlə, qürurla çəkir. Qərinələr keçəcək, gələcək nəsil də onu özünə örnək biləcəkdir. Çünki o, Vətən uğrunda canını fəda etmişdir.

***Zəfər Orucoğlu, AJB üzvü***

## Fransa parlamenti rəsmiləri Ermənistana dəstək verməyə gedir



***Bu gün axşam saatlarında Fransa Milli Assambleyasının sədri Yael Braun-Pivenin başçılıq etdiyi nümayəndə heyəti İrəvana səfər edəcək.***

”Unikal” xəbər verir ki, bu barədə Fransa parlamentinin sədri öz ”Twitter” hesabında yazıb.

Məlumata görə, nümayəndə heyəti Fransa parlamentinin dəstəyini ifadə etmək üçün İrəvana yollanır. Qrupa deputatlar Valeri Rabot, Jan-Lui Burlanj və başqaları daxildir.

*Ağarza Elçinoğlu*

## Tehranda Azərbaycanın sədrliyi ilə İƏT-in ilk iclası keçirilib

***Azərbaycanın 2023-cü ildə İqtisadi Əməkdaşlıq Təşkilatına sədrliyi çərçivəsində təşkilatın Daimi Nümayəndələr Şurasının bu il üzrə ilk iclası keçirilib.***

”Unikal” xəbər verir ki, bu barədə Azərbaycanın İrandakı səfirliyi “Twitter“ səhifəsində paylaşım edib.

Qeyd olunub ki, iclas Tehran şəhərində baş tutub.

## "Paşinyanın bu bəyanatı absurddur" - Zaxarova



***”Rusiya qoşunlarının mövcudluğu Ermənistanın təhlükəsizliyinə təhdid yaradır bəyanatı absurddur”.***

”Unikal” gazeta.ru-ya istinadən xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bu gün keçirdiyi brifinqdə deyib.

O, Ermənistan Baş naziri Nikol Paşinyanın mətbuat konfransında verdiyi bəyanata münasibət bildirib.

”Bizim hərbçilərimiz, sərhədçilərimiz Ermənistanın təhlükəsizliyinə əhəmiyyətli töhfə verir, onun sərhədlərini qoruyur. Bu obyektiv reallığı inkar etmək mümkün deyil”, - Zaxarova qeyd edib.

## Rusiyada müxalif jurnalist axtarışa verildi

***Rusiya Federasiyası Daxili İşlər Nazirliyi Rosfinmonitorinq tərəfindən ekstremistlər siyahısına daxil edilmiş jurnalist Arkadi Babçenkonu axtarışa verib.***

”Unikal” xəbər verir ki bu barədə ”RİA Novosti” məlumat yayıb.

Onun hansı səbəbdən axtarışa verilməsinin təfərrüatları açıqlanmır.

Qeyd edək ki, rusiyalı müxalif jurnalist 2017-ci ilin fevralında özünə və ailəsinə qarşı təhdidlərə görə Rusiyanı tərk edib.

## "Ukraynada dərhal ataşkəs elan olunmalıdır" - Akar

***Türkiyənin müdafiə naziri Hulusi Akar ukraynalı həmkarı Aleksey Reznikova ilə söhbətində Ukraynada dərhal ataşkəsin vacibliyindən danışıb.***

”Unikal” xəbər verir ki, Akar qeyd edib ki, Türkiyə başda Prezident Rəcəb Tayyib Ərdoğan olmaqla, bölgədə sülhün təmin edilməsinə və bütün səviyyələrdə humanitar yardımların göstərilməsinə töhfə verməyə davam edəcək.

O, bildirib ki, Qara Dəniz Taxıl Təşəbbüsü sənədi çərçivəsində yaradılmış Birgə Əlaqələndirmə Mərkəzinin işi sayəsində 17 milyon tona yaxın taxıl Ukrayna limanlarından ehtiyacı olan ölkələrə təhlükəsiz şəkildə daşınıb.

## Qaribaşvili İrəvanda Paşinyanla görüşəcək

***Gürcüstan Baş naziri İrakli Qaribaşvili bu gün Ermənistana səfər edəcək.***

”Unikal” xarici KİV-ə istinadən xəbər verir ki, o, Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşəcək.

Həmçinin, tərəflər arasında Ermənistan və Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın iclası keçiriləcək.

## Paşinyandan Qarabağ ermənilərinə çağırış



***”Vəziyyəti daha da çıxılmaz vəziyyətə salan siyasi bəyanatlardan çəkinmək lazımdır”.***

”Unikal” “Sputnik Armenia”ya istinadən xəbər verir ki, bunu Ermənistan Baş naziri Nikol Paşinyan hökumətin bugünki iclasında çıxışı zamanı deyib.

O, Qarabağ ermənilərini vəziyyəti daha da gərginləşdirəcək açıqlamalardan çəkinməyə çağırıb. Həmçinin, Paşinyan Laçın yolunda azərbaycanlı ekofəalların aksiyası fonunda bölgədəki ermənilərin hadisələrə daha təmkinli yanaşmasının, baş verənləri analiz etməsinin önəmli olmasından danışıb.

*Gülayə Mecid*

## Myanma ordusunun bombaları Hindistana düşdü



***Myanma ordusunun üsyançıların düşərgəsinə endirdiyi hava zərbələri zamanı Hindistan ərazisinə iki bomba düşüb.***

”Unikal” xəbər verir ki, Myanma ordusu ölkənin Çin əyalətindəki ən böyük üsyançıların təlim düşərgələrindən birinə hava zərbəsi endirib. Myanma-Hindistan sərhədində yerləşən kənd sakinlərinin verdiyi məlumata görə, hava hücumu zamanı Hindistan sərhədlərinə iki bomba düşüb.

Bildirilir ki, hadisə nəticəsində ölən və yaralanan olmayıb.

Hadisə ilə bağlı Hindistan tərəfindən hələlik heç bir təsdiq və ya açıqlama verilməyib.

Qeyd edək ki, Myanma ordusu 2020-ci il ümumi seçkilərində saxtakarlıq iddiaları irəli sürüldükdən sonra 1 fevral 2021-ci ildə hərbi çevrilişlə hakimiyyəti ələ keçirib.

Uzun müddətdir silahlı mübarizə yolu ilə muxtariyyət tələb edən hərbçilərlə azlıq qrupları arasında qarşıdurmalar artmaqda davam edir. Hökumət on illərdir ki, etnik əhalinin üstünlük təşkil etdiyi sərhəd bölgələrində silahlı qruplarla mübarizə aparır.

Myanma ordusunun çevriliş əleyhinə nümayişçilərə və üsyançı qruplara qarşı silahlı müdaxiləsi nəticəsində 1800-dən çox insan həyatını itirib.

Çevrilişdən sonra 13 minə yaxın adam saxlanılıb, 10 mindən çox insan hələ də həbsdədir.

## İndoneziya prezidenti buna görə ölkəsindən üzr istədi



***İndoneziya prezidenti Coko Vidodo ölkəsində keçmişdə “ağır insan haqları pozuntularına” görə üzr istəyib.***

”Unikal” xəbər verir ki, o, bu barədə Cakartadakı Prezident sarayında onlayn yayımlanan çıxışında danışıb.

1965-2003-cü illərdə baş vermiş pozuntulara görə dərin təəssüf hissi keçirdiyini bildirən Vidodo 12 insidenti misal çəkərək, hökumət qüvvələri tərəfindən yatırılan hadisələrdə ”ciddi insan hüquqları pozuntularına” görə dövlət səviyyəsində üzr istəyib.

”Dövlət başçısı kimi mən bir çox insidentlərdə baş vermiş ağır insan hüquqları pozuntularının olduğunu vicdanla qəbul edirəm”,- deyə o, ifadə edib.

Qeyd edək ki, 1965-ci ildə general Suhartonun başçılıq etdiyi hərbi çevrilişdən sonra ölkə ələ keçirilib. Bundan sonra İndoneziya şiddətli repressiyaların, həbslərin və qətllərin şahidi olub.1998-ci ildə kütləvi nümayişlər Suhartonun otuz illik diktaturasını devirib, lakin bu prosesdə çoxlu tələbə qaçırılıb və öldürülüb.

Məlumata görə, 1960-cı illərdə ən azı 500 min insan zorakılıq nəticəsində həyatını itirib.

*Gülayə Mecid*

## "Niyə boş-boş oturursan?" - Putin iclasda nazirə əsəbiləşdi



***Rusiya prezidenti Vladimir Putin videokonfrans zamanı yerinə yetirilməyən tapşırığa görə əsəbiləşib.***

”Unikal” xarici KİV-ə istinadən xəbər verir ki, müharibədə Rusiya ordusunun artan itkiləri və sanksiyaların yaratdığı iqtisadi problemlərdən əsəbi olduğu deyilən Putin yüksək səviyyəli hökumət rəsmiləri ilə videogörüşdə baş nazirin müavini, sənaye və ticarət naziri Denis Manturovu açıq şəkildə sərt tənqid edib.

Belə ki, Yeni il tətilini Türkiyədə keçirdiyinə görə Denis Manturov yeni mülki və hərbi təyyarələrlə bağlı müqavilələri başa çatdıra bilməyib. Buna görə də onlayn iclas zamanı baş nazirin müavininə qəzəblənən Putin “Müqavilə yoxdur. Mənə nə deyəcəksən? Menecerlər mənə dedilər ki, heç bir müqavilə bağlanmayıb. Niyə boş-boş oturursan?” - deyə sözlərindən istifadə edib.

İclasdan yayımlanan görüntülərdə Baş nazirin müavini Denis Manturov və digər dövlət rəsmilərin bu hadisəni heyrətlə izlədiyi və susqunluğu əks olunub.

Yüksək səslə danışmağa davam edən Putin, “Bu iş bir aya bitəcək. Sizə deyirəm, bir aydan sonra bu iş hazır olmalıdır”, - deyə tapşırıq verib.

*Gülayə Mecid*

# "Hazırlıq prosesinin ən böyük sürprizi Mahir Emrelidir" - Xorvatiya mətbuatı

***"Rovin şəhərində keçirilən təlim-məşq toplanışına baxanda müəyyən etmək olur ki, hazırlıq prosesinin ən böyük müsbət sürprizi Mahir Emrelidir".***



Qol.az xəbər verir ki, bu sözlər Xorvatiyanın "Sportske jutarnji" qəzetində dərc olunan yazıdan götürülüb. Nəşr Azərbaycan milli komandasının hücumçusu Mahir Emrelinin də üzvü olduğu "Dinamo" Zaqrebin düşərgəsindən reportaj hazırlayıb. Bu zaman Emrelinin məşqdə özünü yaxşı tərəfdən göstərdiyi bildirilib: "Azərbaycanlı futbolçu son dərəcə kaprizli, güclü və aqressiv görünürdü. Şübhə yoxdur ki, o, həqiqədən özünü Çaçiçə ("Dinamo"nun baş məşqçisi - red.) göstərmək istəyir. Maraqlıdır ki, qışda Emrelinin komandadan gedəcəyinə dair ehtimallar var idi. Amma gördüklərimizdən bizdə belə qənaət formalaşıb ki, yazda onun həm hücumun sağ cinahında, həm də mərkəzdə oynamaq üçün çox şansı olacaq. Petkoviçin mümkün gedişindən sonra isə onun qarşısında böyük imkanlar açılacaq" - deyə yazıda bildirilib.

Xatırladaq ki, M.Emreli bu mövsüm Xorvatiya yüksək liqasında 7 oyun keçirib, 3 qol vurub.

# Azərbaycan çempionatının oyunu kütləvi xəstəliyə görə təxirə salındı

***Kişi voleybolçular arasında Azərbaycan Yüksək Liqasının II turunda bu gün keçirilməli olan "Neftçi" - "Xarı bülbül" oyunu birincilərin oyunçularının xəstələnməsi səbəbindən qeyri-müəyyən müddətə təxirə salınıb.***



"Unikal" Azərbaycan Voleybol Federasiyasının mətbuat xidmətinə istinadən xəbər verir ki, "Neftçi" klubunun rəhbərliyi bununla bağlı müraciət ünvanlayıb.

Adıçəkilən klubun müraciətində bildirilib ki, komandanın əksər oyunçuları hazırda ölkədə geniş yayılmış qrip virusundan və yüksək hərarətdən əziyyət çəkirlər və məşqlərdə iştirak edə bilmirlər. Bu səbəbdən AVF qarşılaşmanın başqa vaxta keçirilməsini qərara alıb.

Beləliklə, bu gün yalnız MOİK - "Murov" oyunu baş tutacaq. Görüş saat 16:00-da start götürəcək.

Qeyd edək ki, qadın voleybolçular arasında yanvarın 11-də keçirilməli olan Azərbaycan Yüksək Liqasının II turunun "Murov" - UNEC matçı eyni səbəbdən təxirə salınıb.

# "Qəbələ"nin Antalyada ilk sınağı

***"Qəbələ" bu gün yoxlama oyunu keçirəcək.***

Qol.az xəbər verir ki, yanvarın 4-dən Türkiyənin Antalya şəhərində təlim-məşq toplanışında olan "qırmızı-qaralar" ilk sınağına çıxacaq.

Mövsümün ikinci yarısının hazırlığı çərçivəsindəki ilk dueldə rəqib Rumıniyanın "Sepsi" klubu olacaq. Qarşılaşma Bakı vaxtı ilə saat 16:00-da başlayacaq.

"Sepsi" Rumıniya kubokunun və Superkubokun son qalibidir. Komanda hazırda Rumıniyanın yüksək liqasında 21 oyuna 32 xalla 6-cıdır.

Xatırladaq ki, "Qəbələ" Antalyada daha iki yoxlama matçına çıxacaq. Elmar Baxşıyevin komandası yanvarın 14-də Almaniyanın "Lukenvalde", 16-da Çexiyanın "Teplitse" klubu ilə görüşəcək.

12 yanvar
Yoxlama oyunu
16:00. "Qəbələ" - "Sepsi" (Rumıniya)
"Arcadia Sports Senter"

# Enrike Braziliya millisinin baş məşqçisi ola bilər

***Luis Enrike Braziliya millisinə baş məçqçilik edə bilər.***

Qol.az xəbər verir ki, bu barədə "Diario Sport" məlumat yayıb. Braziliya Futbol Konfederasiyası (CBF) 2022-ci il dünya çempionatından sonra millinin baş məşqçisi vəzifəsini tərk edən Titenin əvəzedicisini tapmaq üçün bu gün işə başlayacaq.



Enrike bu vəzifəyə əsas namizəd hesab olunur. Onun baş məşqçi təyinat olunması Joze Mourinyo və ya Karlo Ançelottinin dəvətindən daha vacib və real qiymətləndirilir.

Qeyd edək ki, Enrike hazırda işsizdir.



# "Sumqayıt" braziliyalı futbolçu transfer etdi

***"Sumqayıt" dövrələrarası fasilədə ilk futbolçu keçidini reallaşdırıb.***

"Kolos"un (Ukrayna) 25 yaşlı futbolçusu Dieqo Kariokanı heyətə cəlb edilib. Braziliyalı vinger müqavilə müddəti uzadılması şərti ilə mövsümün sonuna qədər icarəyə götürülüb.

Qeyd edək ki, "Sumqayıt" tarixinə ilk braziliyalı futbolçu kimi düşən Dieqo Karioka karyerası ərzində "Şaxtyor" (Soliqorsk, Belarus), "Vitebsk" (Belarus), "Yagelloniya" (Polşa), "Zalagerseq" (Macarıstan) və "Kolos" (Ukrayna) kimi klublarda çıxış edib.

# "Beşiktaş" milli üzvü ilə müqavilənı ləğv etdi

***Türkiyənin "Beşiktaş" klubu hücumçu Vaut Veqhorstun müqaviləsini ləğv edib.***



Apasport.az saytı xəbər verir ki, İngiltərədə "Mançester Yunayted"lə razılıq əldə edən Niderland millisinin üzvü bu gün İstanbuldan ayrılacaq.

Veqhorst hətta yeni komandasının axşam məşqində iştirak etmək üçün çarter relsi ilə Mançesterə gedəcək.

Qeyd edək ki, "Beşiktaş" 30 yaşlı forvardı mövsümün əvvəlində İngiltərə Çempionşip klubu "Börnli"dən icarəyə götürmüşdü. İstanbul təmsilçisi oyunçunun müqaviləsini ləğv etmək qarşılığında "Mançester Yunayted"dən üç milyon avro alacaq.

# Messi Ronaldoya çatdı

***PSJ-nin futbolçusu Lionel Messi portuqaliyalı Kriştiano Ronaldonun rekorduna şərik olub.***



Apasport.az saytı xəbər verir ki, argentinalı superulduz dünya çempionatından sonra iştirak etdiyi ilk oyunda bu uğura imza atıb.

O, Liqa 1-in "Anje" ilə oyununda (2:0) rəqib qapısına yol tapmaqla Top-5 liqalarında qollarının sayını 696-ya çatdırıb. Messi bununla da "Əl-Nəsr"in şərəfini qoruyan Ronaldonun daha bir rekordunu təkrarlayıb.

Lakin onun portuqaliyalını keçməsi çətin olmayacaq. Messi daha 1 qola imza atarsa, mütləq rekorda yiyələnəcək.